“Xudafərin harayından qalan mən!..”

# XUDAFƏRİN



Qəzet 1932-ci ildən çıxır № 7-8 (6843-6844) 10 may 2021-ci il Cəbrayıl RİH-nin qəzeti

# 10 may - Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümüdür

# 9 May faşizm üzərində Qələbədən 76 il keçir




## İlham Əliyev Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib

**Mayın 10-da xalqımızın xilaskar oğlu, Ümummilli Lider Heydər Əliyevin anadan olmasından 98 il ötür.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət ediblər.

”Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub”, - deyən Heydər Əliyev bütün mənalı ömrü boyu qüdrətli Azərbaycan yaratmaq uğrunda çalışıb. Dahi Liderin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrilib, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil edib. Ümummilli lider Heydər Əliyev öz fəaliyyəti ilə vətənpərvər cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəlib. Ulu Öndərin yaratdığı və inkişaf etdirdiyi Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı düşmən tapdağından azad edib, xalqımız tarixi hədəflərinə qovuşub, Vətənimiz bütövləşib. Bununla da ”Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!” deyən Ulu Öndərin ən böyük arzularından biri də həyata keçib, Azərbaycanın ərazi bütövlüyü təmin olunub. Xalqımız böyük dövlət xadimi, müasir müstəqil Azərbaycanın banisi Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünü 44 günlük Vətən müharibəsində qazanılmış şanlı Qələbənin doğurduğu sevinc hissi ilə qeyd edir.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil, birinci xanım Mehriban Əliyeva gül dəstəsi qoydular, Ulu Öndərin xatirəsini ehtiramla andılar.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndi.

Sonra dövlətimizin başçısı və xanımı Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoydular.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzdülər.

Azərbaycan tarixinin bütöv bir dövrü Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin mənalı ömrünün əsas qayəsi Vətənə, xalqa məhəbbətdir. Məhz bu keyfiyyətlərinə görə Heydər Əliyev xalqımızın qəlbində əbədi məskən salıb. Onun qurduğu dövlət indi qalib dövlətdir və bu dövlətin dəmir yumruğu yeni reallıqlar yaradıb.

## Prezident İlham Əliyev və birinci xanım Cəbrayılda

Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva Cəbrayıl və Zəngilan rayonlarında olublar.

Dövlətimizin başçısı, birinci xanım və qızları Cəbrayıl rayonunun girişində ”Cəbrayıla xoş gəlmişsiniz!” sözləri yazılmış lövhənin qarşısına gəldilər.

Prezident İlham Əliyev: Cəbrayıl rayonuna gəlmişik. Vaxtilə Cəbrayıl rayonunun girişində ucaldılmış lövhəni biz indi yenidən qurduq və eyni formada, eyni dizaynla. Biz ”Cəbrayıla xoş gəlmişsiniz!” lövhəsini bərpa etdik. Sovet vaxtında bu abidə, - əgər belə demək mümkündürsə, - qoyulmuşdur, ucaldılmışdır və işğal dövründə tamamilə sökülmüş, paslanmışdır. Bunun paslanmış görüntüləri artıq mətbuatda da var. Ona görə tarixi ədaləti bərpa edərək, Cəbrayıl rayonunun girişində yerləşən bu ”Xoş gəlmişsiniz!” lövhəsini, abidəni biz yenidən bərpa etdik. Azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bütün şəhərləri, kəndləri bərpa edəcəyik.




***

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cəbrayıl rayonunda Dövlət Sərhəd Xidmətinin hərbi hissəsinin açılışında da iştirak etdilər.

Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

***

Dövlətimizin başçısına məlumat verildi ki, yeni hərbi hissədə xidməti yüksək səviyyədə aparmaq üçün bütün şərait var.

Sonra Prezident İlham Əliyev yeni hərbi maşınlarla tanış oldu və onlardan birini idarə etdi.

***

Hərbi hissədə yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları ilə görüşdü və çıxış etdi.

***

Dövlətimizin başçısı sərhədçilərlə birgə şəkil çəkdirdi.

## Videokonfrans keçirildi



**Mayın 7-də Cəbrayıl rayon İcra Hakimiyyətinin və YAP Cəbrayıl rayon təşkilatının birgə təşkilatçılığı ilə ”Zəfərlə gələn doğum gününüz mübarək, Ulu Öndər” mövzusunda videokonfrans keçirilmişdir.**

Ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibətilə keçirilən konfransda Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ceyhun Məmmədov, YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev, rayon İcra Hakimiyyətinin əməkdaşları, rayon Təhsil şöbəsinin müdiri Zamiq Qurbanov, gənclər və ictimaiyyət nümayəndələri iştirak etmişlər.

Əvvəlcə konfrans iştirakçıları dahi şəxsiyyətin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edərək, ruhuna ehtiramlarını bildirmişlər. Konfransda Ümummilli Liderin gələcəyə hesablanmış siyasətinin uğurları, Azərbaycanın qarşısında açdığı imkanlar geniş şərh edilmişdir. Bildirilmişdir ki, Heydər Əliyev siyasətinin uğurlarının miqyası o qədər genişdir ki, bu konfransda onu əhatə etmək qeyri-mümkündür. İllər keçdikcə, bir-birindən mühüm uğurlara imza atıldıqca Heydər Əliyev siyasətinin böyüklüyü daha aydın görünür. Bu gün bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev Heydər Əliyev fəlsəfəsini, Azərbaycanı inkişafa aparan strategiyanı uğurla dünyaya təqdim edir. Elə bu gün Azərbaycanın adının tarixə qalib ölkə, Prezident İlham Əliyevin qalib Sərkərdə, xalqımızın məğrur, yenilməz xalq, ordumuzun rəşadətli ordu kimi tarixə düşməsi də məhz Heydər Əliyev siyasətinin təntənəsidir.

Natiqlər qeyd etmişlər ki, Ulu Öndər Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyət və böyük dövlət xadimidir. O, Azərbaycan xalqı və dövlətçiliyi üçün misilsiz xidmətlər göstərmiş, tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarix yaradan şəxsiyyətdir. Ulu Öndərin milli və dövlətçilik maraqlarına xidmət edən zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxmışdır. Xalqımız dahi şəxsiyyəti daim minnətdarlıq hissi ilə xatırlayacaq, əziz xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.

**“Xudafərin”**

“Xudafərin harayından qalan mən!..”
XUDAFƏRİN
№ 7-8 (6843-6844) 10 may 2021-ci il




# APREL DÖYÜŞLƏRİ - BÖYÜK ZƏFƏRİN BAŞLANĞICI

Böyük Zəfərin başlanğıcı olan aprel döyüşlərindən beş il ötür. Bu münasibətlə Cəbrayıl Rayon İcra Hakimiyyətinin, YAP Cəbrayıl rayon təşkilatının əməkdaşları və ictimaiyyət nümayəndələri Biləsuvar rayonu ərazisində Cəbrayıllı məcburi köçkünlər üçün salınmış 3 saylı qəsəbə qəbiristanlığının Şəhidlər məzarlığında aprel döyüşlərində şəhid olmuş Qəhrəmanov Ruhin Əşrəf oğlunun məzarını ziyarət edərək, önünə qərənfillər düzmüş, əziz xatirəsinə ehtiramlarını bildirmişlər.Döyüşlər zamanı Cəbrayıl rayonu iki şəhid verib. Şəhidlərimiz Qəhrəmanov Ruhin Əşrəf oğlu, İbrahimov Mahmud Azər oğlunun əziz xatirəsini hər zaman hörmət və qürur hissi ilə anırıq!

Aprel döyüşlərinin ən böyük tarixi əhəmiyyəti bu qələbə sayəsində ”Böyük Qayıdış” prosesinə start verilməsi oldu. Lələtəpə yüksəkliyinin azad edilməsi nəticəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində mülki əhalinin yaşayışı üçün təhlükə tamamilə aradan qaldırıldı. Dövlətimizin başçısının Cocuq Mərcanlı kəndinin bərpası və əhalinin yerləşdirilməsi ilə bağlı 2017-ci il 24 yanvar tarixli Sərəncamı ilə ”Böyük Qayıdış” prosesinə start verildi. Artıq bu kəndin əhalisinin 23 illik fasilədən sonra doğma torpaqlarına qayıtması işğal altındakı digər ərazilərimizin də tezliklə azad olunmasına bütün xalqımızda dərin inam yaratdı.

Aprel döyüşləri Azərbaycanın hərb salnaməsinə qızıl hərflərlə yazılan Şanlı Vətən müharibəsində Böyük Qələbəyə gedən yolda mühüm əhəmiyyət kəsb edir. Beş il əvvəl bu döyüşlərdə düşmən üzərində qazanılan hərbi uğurlar Azərbaycan Ordusunun və xalqının Böyük Qələbəyə inamını və əzmini daha da artırmaqla yanaşı, Ordumuzun şəxsi heyəti üçün mühüm sınaq və döyüş təcrübəsi oldu. Məhz bu təcrübəni ikinci Qarabağ müharibəsində uğurla tətbiq edən rəşadətli Azərbaycan Ordusu düşmənə qəti zərbə vuraraq torpaqlarımızı işğaldan azad etdi. Qürurverici hal ondan ibarətdir ki, Böyük Qələbəni cəmi 44 gündə qazanaraq, Azərbaycanın ərazi bütövlüyünü təmin edən Şanlı Ordumuzun Vətən müharibəsində tətbiq etdiyi ən müasir döyüş taktikası və mühüm yeniliklər dünyanın qabaqcıl orduları tərəfindən dərindən öyrənilir və təqdir olunur.

Bu gün hər bir azərbaycanlı beş il əvvəl Lələtəpədə ucaldılan üçrəngli bayrağımızın artıq işğaldan azad edilən Şuşada və digər ərazilərimizdə dalğalanmasından sonsuz qürur duyur.

**”XUDAFƏRİN”**

# Fəxri Fərmanlar verildi



Yeni Azərbaycan Partiyası Cəbrayıl rayon təşkilatında mövcud pandemiya qaydaları çərçivəsində fəal YAP üzvləri Əyyub Quliyev və Nəriman Əsədovla görüş keçirilmişdir. Tədbirdə çıxış edən YAP rayon təşkilatının sədri Arif Fərzəliyev dedi:

- Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandanımızın sayəsində zəfər çaldıq. Bu gün qürurla deyə bilərik, biz artıq məcburi köçkün deyilik. Ümumilli Liderimiz Heydər Əliyevin siyasi kursu Qələbə çaldı.Bu Zəfəri bizə yaşatdıqlarına görə Ali Baş Komandanımıza, Şanlı Ordumuza minnətdarıq. Şəhidlərimizin qarşısında baş əyir, ruhları şad olsun deyirik.



Görüşdə rayon partiya təşkilatında, rayonun ictimai-siyasi həyatındakı səmərəli fəaliyyətlərinə görə Əyyub Quliyevə 75 illik, Nəriman Əsədova 70 illik yubileyləri ilə əlaqədar Fəxri Fərmanlar təqdim olundu.

Yubilyarlar bundan sonra da YAP -ın əsgərləri kimi ictimai həyatda fəallıq göstərib, dövlətə və dövlətçiliyə sadiq olacaqlarını bildirdilər.

**”XUDAFƏRİN”**

# ƏYYUB SÜLEYMANOVUN XATİRƏSİ YAD EDİLDİ

Aprelin 9-da Vətən müharibəsində qəhrəmancasına şəhid ol-



muş, əslən Cəbrayıl rayonunun Qumlaq kəndindən olan Süleymanov Əyyub Rasim oğlunun doğum günü münasibətilə Biləsuvar rayonu ərazisində cəbrayıllı məcburi köçkünlər üçün salınmış 3 saylı qəsəbə qəbiristanlığının Şəhidlər məzarlığında anım tədbiri keçirilmişdir. Tədbirdə Cəbrayıl Rayon İcra Hakimiyyətinin, YAP rayon təşkilatının əməkdaşları və şəhidin məzunu olduğu İ. Tahirov adına Mehdili kənd tam orta məktəbinin müəllim və şagirdləri iştirak etmişlər.Tədbir iştirakçıları öncə şəhidin məzarı önünə qərənfillər düzmüş, əziz xatirəsinə ehtiramlarını bildirmişlər. Sonra canlarını Azərbaycanın ərazi bütövlüyü uğrunda qurban vermiş cəmi şəhidlərimizin əziz xatirəsinə dualar oxunaraq xatirələri birdəqiqəlik sükutla yad edilmişdir.

Əyyub Rasim oğlu Süleymanov 9 aprel 2001-ci ildə İmişli rayonunda anadan olub. O, 2007-2016-cı illərdə Biləsuvar rayonu ərazisində salınmış 7 saylı qəsəbədə fəaliyyət göstərən İ. Tahirov adına Mehdili kənd tam orta məktəbində ümumi orta təhsil almışdır. 2016-2018-ci illərdə Cəbrayıl rayon 131 nömrəli Texniki Peşə Məktəbində təhsilini davam etdirərək elektrik avadanlıqlarının təmiri üzrə elektrik montyoru ixtisasına yiyələnmişdir. Peşə təhsilini başa vurduqdan sonra 2019-cu ilin aprel ayında həqiqi hərbi xidmətə çağırılıb. Hərbi xidmətini ləyaqətlə yerinə yetirən igid əsgər Vətənin bölünməzliyi və ərazi bütövlüyü uğrunda gedən Vətən müharibəsində qəhrəmanlıqlar göstərmiş, 01 noyabr 2020-ci il tarixdə Laçın rayonu istiqamətindəki döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Biləsuvar rayonu ərazisindəki 3 saylı qəsəbə qəbiristanlığının Şəhidlər məzarlığında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə Süleymanov Əyyub Rasim oğlu ölümündən sonra ”Cəbrayılın azad olunmasına görə”, ”Qubadlının azad olunmasına görə”, ”Laçının azad olunmasına görə”, ”Hərbi xidmətlərə görə” və ”Vətən uğrunda” medalları ilə təltif edilmişdir.



Tədbirdə Rayon İcra Hakimiyyəti başçısının müavini Fəridə İbayeva çıxış edərək bildirmişdir ki, Ermənistan silahlı qüvvələrinin 2020-ci il sentyabrın 27-də törətdiyi növbəti hərbi təxribata cavab olaraq Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, cənab İlham Əliyevin əmri ilə Azərbaycan Respublikasının Silahlı Qüvvələri əks-hücum əməliyyatlarına başlamış və 44 gün davam edən müharibə rəşadətli Ordumuzun qələbəsi ilə başa çatmışdır. Natiq qeyd etmişdir ki, Vətən müharibəsində Cəbrayıl rayon sakinləri də fəal iştirak etmiş, 23 nəfər cəbrayıllı döyüş əməliyyatlarında qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalmışlar. Fəridə İbayeva müharibədə iştirak edərək qəhrəmanlıq göstərən şəhid Süleymanov Əyyub Rasim oğlunun keçdiyi döyüş yolu, göstərdiyi şücaətdən danışdı.Şəhidin valideynlərinə və ailə üzvlərinə başsağlığı verərək belə qəhrəman övlad böyütdükləri üçün minnətdarlığını bildirmiş, Əyyub kimi qəhrəman övladların igidliyi, qəhrəmanlığı, şücaəti nəticəsində 30 illik vətən həsrətinə son qoyulduğunu bir daha diqqətə çatdırmışdır.

Şəhidin valideynləri övladlarının qəhrəmanlığı ilə fəxr etdiklərini, şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan, cənab İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildirmişlər.

Sonda İ. Tahirov adına Mehdili kənd tam orta məktəbin şagirdlərinin ifasında Vətən, Qarabağ, şəhidlər haqqında şeirlər səsləndirilmişdir.

**H.SƏFƏRLİ**

# Ümumrayon iməciliyi keçirildi

**Ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü ilə əlaqədar Cəbrayıl rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə ümumrayon iməciliyi keçirildi.**

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə tər gül-çiçək dəstələri düzmüş və xatirəsi ehtiramla yad edildi. Daha sonra Biləsuvar rayonu ərazisində 4 saylı qəsəbədə salınmış ”Şəhidlər” abidə kompleksi və Vətən müharibəsi şəhidlərinin məzarları ziyarət edilmişdir. Tədbirdə Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, Milli Məclisin deputatı Ceyhun Məmmədov, rayon rəsmiləri, idarə və müəssisələrinin rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak etdilər.



İməcilikdə əhalinin məskunlaşdığı 11 qəsəbənin ərazisində, Şəhidlər məzarlığında, məktəblərin, bağçaların həyətlərində və digər ərazilərdə təmizlik, abadlıq işləri aparıldı. Yeni ağac və gül kolları əkilmiş, mövcud olan yaşıllığa aqrotexniki qaydada qulluq göstərildi.

**“XUDAFƏRİN”**

# Şəhid Ruslan Hüseynovun ev - muzeyi

Mayın 10-da Beyləqan rayonunun Bahar qəsəbəsindən olan 2-ci Qarabağ müharibəsi şəhidi Ruslan Vəli oğlu Hüseynovun ev-muzeyinin açılışı oldu. Ad günü münasibətilə atası Vəli kişinin öz həyətində şəhid övladının adına tikdirdiyi bu ev-muzeyinin açılışında Milli Məclisin üzvü Ceyhun Məmmədov, Cəbrayıl rayon İcra Hakimiyyəti başçısının müavini Tapdıq Nəsirov və nümayən-





dələri, şəhidin zabit və əsgər yoldaşları, media nümayəndələri, şəhidin qohum-əqrəbaları və digər qonaqlar iştirak edirdilər.

Otaqlarda Ruslan Hüseynovun geyim paltarları, həyatının müxtəlif anlarını əks etdirən şəkilləri, eləcə də digər şəxsi əşyaları yerləşdirilmişdi. Ev-muzeyin təşkil olunmasından məqsəd vətən fədaisinin qəhrəmanlıqla dolu ömür yolunu indiki və gələcək nəslə nümayiş etdirib tanıtmaqdır.

33 yaşlı şəhidimizin cənnətdəki ilk ad gününə yığışanlar xatirələrini bölüşdülər, Ruslan Hüseynovun şəxsi keyfiyyətlərindən söz açdılar.

Sonda Bahar qəsəbəsindəki qəbiristanlıqda Şəhidlər kompleksi ziyarət olundu, Ruslanın və digər şəhidlərimizin məzarları önünə əklillər qoyuldu, ruhlarına dualar oxundu.

**Şakir Əlifoğlu**

BAŞ REDAKTORDAN ”Xudafərin” - 90

# "Xudafərin"in 90 illik yubileyi qarşısında...

Bəşəriyyətin iki böyük kəşfindən biri çörək istehsalıdırsa, o biri də kağız emalıdır. Hər ikisi də elə bəşəriyyətin özünə, bəşər övladına xidmət edir. Bəşər nəslinin aclığını aradan qaldırır, bəşəriyyəti qidalandırır. Biri maddi cəhətdən, digəri mənəvi olaraq aclığı aradan götürür, insanı tox saxlayır, acından ölməyə qoymur. El arasında yarızarafat da olsa deyilən ”əvvəl ”gödəniyyət” - yəni qarın, sonra mədəniyyət” ifadəsi də prinsipcə elə yuxarıdakı amillərlə şərtləşir. Çörək olmasa, insanda fiziki enerji tükənər və mədəni quruculuq işlərinə, elmi-texniki kəşflərə insanda fiziki güc-taqət olmaz. İnsan yeməlidir (cismani olaraq sağlam və güclü olmalıdır) ki, işləyə bilsin - həm fiziki iş görməyə qüvvəsi çatsın, həm də zehni işlə məşğul olmağa daxili mənəvi enerjisini səfərbər edə bilsin. Səməd Vurğunun ”çörək bol olarsa, basılmaz vətən!” aforizmi də bu həqiqəti əks etdirir.

Doğrudan da, dərindən fikirləşəndə, insan özlüyündə fikirləşib götür-qoy edəndə, adamı maraq götürür: kim düşünüb, kim fikirləşib tapıb ki, buğdanı (sünbülü), yaxud da adekvat olaraq arpanı, çovdarı, qarğıdalını və s. ək-becər, yetişdirib dəni-buğdanı kirkirədə çək, dəyirmanda üyüt, un (qovut) hazırla, onu da su ilə yoğurub xəmir hazırla, sonra da sacda, təndirdə və s. bişirib çörək halına gətir və həmin çörəyi yeməyin hesabına digər qidalarla nisbətdə mədənin aclığı xeyli müddətə aradan qaldırılsın. Üstəlik də ki, özündə bununla fiziki güc tapıb, böyük enerji toplayıb işlə, fiziki və mənəvi əmək cəbhəsində hünər göstər. Çeşid-çeşid un məmulatları, çörək növləri və s.-ni də bura hələ əlavə etmirəm ki, bunlar tarixin sonrakı mərhələləridir. ”Sehrli sünbül” adlı mifoloji rəvayətimiz isə yuxarıdakı deyilənlərə xalqımızın mifik təfəkkürünün inikasıdır. Əgər bu mifik mətn həqiqətindən yanaşsaq, onda sehrli sünbülü-çörəyi oğuz oğlunun - Türk insanının icad edib bəşəriyyətə verdiyi töhfə hesab etmək olar.

Bəşəriyyətin 2-ci böyük kəşfi olan kağız isə müasir yazı üçün əvəzsiz və zəngin xammaldır. Daşın-qayanın, ağacın, dərinin üstündə cızılmaqdan başlayıb yazının bünövrəsi. Ta ki, tarix uzunu böyük inkişaf yolu keçə-keçə təkmilləşərək gəlib indiki müasir səviyyəyə çatıb yazı mədəniyyəti. Doğrudan da, düşünüb-daşındıqda ki, bizim üçün hazırda adidən adi görünən kağızları bu cür yüksək poliqrafik keyfiyyətlərdə kimlər, necə icad ediblər? Hansı dahi, hansı zəngin təfəkkür sahibi bu sellüloz məmulatını - kağızı kəşf edib, yenə təəccüb qalırsan? Bəlkə də, qədim əyyamdan bu günə boylanan olsaydı, xəyalına bu cür yazı materialı olacağını gətirə bilsəydi, mifik dərəcədə inanılmaz olduğunu düşünərdi, ancaq xəyallarda mümkün olacağını fikirləşərdi. Bəlkə də, elə məhz belə bir möcüzənin reallaşmasının müqabilindədir ki, xalqımızın mifik inanclarında qələm də, kağız da, kitab da müqəddəs hesab olunur. ”Quran haqqı”, ”kitab haqqı”... andlarımız, habelə yazıya pozu yoxdu düşüncəmiz, ”Qurani-kərim”dəki ”Qələm” surəsi, habelə tale qəzavü-qədərdən bəd gələndə ”qələmin sınsın, ay fələk” deyilən qarğış nümunəmiz və s. bir daha xalqımızın mifik düşüncəsində yazının, qələmin, kağızın (kitabın) müqəddəs tutulduğunu aydın şəkildə əks etdirir. Yəqin ki, qədim dövrdən baxanda, bu günkü yazı-pozu ləvazimatının parlaq gələcəyi, müasir sellüloz məmulatları, kağız istehsalı kimi məsələr qeyri-adi dərəcədə ağlasığmaz görünə biləcəyindən, bəşər dühasının bu fövqəlkəşfinə olan heyrətin təcəssümünü xalqımız bu cür mifik dərəcədə dəyərləndirib müqəddəsləşdirmişdir.

Bəli, bu mifik reallıq artıq əsrlərdir ki, bütün bəşəriyyət üçün adiləşmiş reallığa çevrilib: adi məktublardan tutmuş qəzet, jurnal, kitablara qədər hamısında biz bəşəriyyətin ikinci böyük kəşfi olan kağız məmulatlarından kütləvi istifadənin şahidiyik.

Bəli, kağızlar yazının xammalıdır. Yazının xam materialı olan bu kağızlara - istər məktub şəklində olsun, istər qəzet-jurnal, istərsə də kitab şəklində - gözümüzün midiyini (miciyini) axıda-axıda beynimizinzəkamızın düşüncəsini və ürəyimizin səsini köçürürük. Bu kağızları müqəddəs eləyən bir səbəb də məhz onun üzərində sözlər vasitəsilə ifadəsini tapmış düşüncə və duyğularımızın yaşamasıdır. Bəli, kağızda, bəyazda, cüngdə, dəftərdə-kitabda düşüncələrimiz və duyğularımız səssizcə-sakitcə dil açıb danışır və bizi heyrətamiz və munis bir dialoqa çəkir. Beləcə, cansız görünən kağız parçası ilə biz için-için sakitcə söhbət eləyirik...

70 minlik Cəbrayıl əhalisinin hamısının söhbət elədiyi, xoş gündə də, dar gündə də sevincini-qəmini bölüşdüyü bir kağız var. Qəzet formatında olan o kağızın adı ”Xudafərin”dir. 90 ilə yaxındır ki, rayonumuzun camaatı ilə ünsiyyətdədir ”Xudafərin” qəzeti. Rayonumuzun başbilənləri-ağıllı baş yiyələri öz zəkalarının işığı ilə işıqlandırıblar bu qəzeti, gözlərinin nurunu töküblər bu qəzetin səhifələrinə. Bu minvalla işıqlı və nurlu bir yol göstərib bu 90 illik vaxt ərzində hər bir oxucusuna. Söz yox ki, oxucular da səssiz-səmirsiz dayanmayıblar bu dialoqda. Onlar da ürək sözlərini boşaldıblar bu səhifələrə. Dara düşəndə kömək gözləyiblər; qəzet də öz xətti ilə müşküllərə əncam çəkib, oxucusuna doğru yol göstərib. Deyərdim ki, Cəbrayıl ziyalılarının, demək olar ki, hamısı ”Xudafərin”in ətəyindən yapışaraq ayaq üstə durublar, yeriyiblər, pillə-pillə ucalaraq şan-şöhrət zirvələrinə çatıblar. Başqa sözlə, ”Xudafərin” hər kəsə öz amalına uyğun yol göstərib, hər kəsə öz istəyi müqabilində köməkdarlıq edib...

Güzgü insanın özünü görməsi üçündür və bu zaman özündə gördüyü əyər-əskiklikləri düzəldib, özünü nizama-formaya salması üçündür. ”Xudafərin” Cəbrayılın ictimai-siyasi, ədəbi-mədəni həyatının güzgüsüdür.

90 ildə çox adamlar gəlib-gedib ”Xudafərin”in səhifələrindən. Özləri də bilmədən bir tarix yazıblar; özləri də tarixə qovuşub, yazdıqları da. Hazırda da belə bir prosesin içindəyik biz.

1993-cü ildən bu yana isə ağır məcburi köçkünlük faciəmiz də öz əksini tapdı burada. Həmin ağır günlərdə rəhmətlik Seyfəddin Əliyev sahib durdu qəzetə. Min bir ənvai-müsibətlə qəzetimizin işıq üzü görməsinə nail oldu. Xalq şairi Məmməd Arazın ”Xudafərin harayından qalan mən!..” misrasını özünə deviz götürdü, respublikamızın 60-a yaxın rayonuna səpələnmiş camaatımızla görüşə gəldi, dərdlərinə həyan oldu. Seyfəddin müəllim dünyasını dəyişəndən sonra isə rəhmətlik Sahib Abdullayev baş redaktor kimi qəzetimizin vaxtaşırı olaraq oxucularla görüşə gəlməsinə xidmətlər göstərdi. Mən də elə o vaxtdan - 2002-ci ildən baş redaktorun müavini kimi Sahib müəllimlə çiyin-çiyinə verib rəsmi olaraq bu qəzetdə fəaliyyətə başladım... Bu minvalla məcburi köçkünlük dövründə də qəzetimiz rayonumuzun əhalisi ilə bir yerdə oldu, ümidimizin üzülməsinə imkan vermədi. Hər ilin 23 avqustunu işğal faciəsi kimi öz səhifələrində əks etdirməklə yanaşı, bir mahnımızda söylədiyi kimi, əminliklə dedik ki, ”Qarabağın qara baxtı... Qalmaz belə qalmaz dünya!” Şükürlər olsun ki, qalmadı da - işğal faciəmiz sona yetdi və Qələbə müjdəmiz də ”Xudafərin”in səhifələrində əksini tapdı. Beləcə, dar günümüzdə ümid verici sözlərlə bizi səbrə dəvət edən qəzetimiz şad günümüzün də carçısı oldu. İndi 90 yaşlı bir müdrik ağsaqqal kimi ”Xudafərin”imiz bizim qolumuzdan tutub doğma yurd yerlərimizə, dədə-baba gorgahımıza da səsləyib-aparacaqdır. Qəzetimizin şərəfli missiyasından biri də məhz budur - bu qayıdış salnaməmiz də ”Xudafərin”imizin səhifələrini bəzəyəcəkdir.

Əziz oxucular! Mən qəzetimizin son dövr tarixini yığcam şəkildə canlandırdım və istədim ki, bir ılıq meh kimi sizlərdə xoş təsir oyatsın. Və bu xoş təsirin ab-havası ilə sizləri də tərpətmək, hərəkətə gətirmək istədim. Axı biz dialoqdayıq - istərdim ki, söhbətimizə qoşulasınız, 90 yaşlı ”Xudafərin”imizin ömür yolunda nələrin şahidi olmusunuzsa, bizə yazasınız.

Bu, sizlərin ”Xudafərin”in 90 illik yubileyinə həm də bir ”Ad günü” təbrikiniz olar. ”Xudafərin”-90” rubrikasında 90 illik yola nəzər salan yazılarınızın işığında gəlin ”Xudafərin”imizi işıqlandıraq!

## Nəriman Əsədov -70



# Varı-dövləti xətir-hörmət olan kişi

İndiki icra hakimiyyətinin yerli ərazi nümayəndələrinə feodal-patriarxal quruluşu dövründə kovxa, katda, kəndxuda deyərdilər. İddiası özündən böyük olanları isə ”evində yox urvalıq, könlündən keçir kovxalıq” deyə məzəmmət edərdilər. Əlbəttə, bu deyimin bir sıra obyektiv, eyni zamanda sosial-fəlsəfi səbəbləri vardı. Ona görə ki, feodalizm, yaxud kapitalizm zamanında malı-pulu, varı-karı olmayan adamı katda (kəndxuda, kovxa) qoymazdılar. ”İnsan olanın dövləti, malı gərək olsun”, ”Pulsuz kişi, insanlığı asanmı sanırsan?” və s. misralarında da böyük M.Ə.Sabir bu reallığa işarə edirdi. Kəndxuda seçilən şəxs də vəzifəsinə güvənib, kəndi çapıb-talamaqla da əlinə var-dövlət keçirib, varını-mülkünü bir qədər də artırırdı.

Zəmanəsinə görə nə qədər reallığı əks etdirsə də, sonrakı dövrlərdə bu məsəl daşıdığı ictimai-siyasi məzmundan uzaqlaşıb, fəlsəfi-metaforik məzmun kəsb etməyə başladı. Elə ona görə də ”Evində yox urvalıq, könlündən keçir kovxalıq” məsəli bu gün də tərkibində arxaik sözlər olmağına baxmayaraq, öz aktuallığında qalıb, məqamı düşdükcə işlənməkdədir. Yəni ”evində bir urvalıq unu (bir bişirimlik çörəyi) olmayan adamın könlündən kəndxudalıq vəzifəsi - kəndə ağalıq etmək iddiası keçir” deyilmək istənilib. Burdakı ”evində bir urvalığı olmamaq” sadəcə maddi baxımdan kasıbçılığı ifadə eləmir, mənəvi kasıblığı da - metaforik olaraq öz evini-ailəsini dolandıra bilməməyi, mahiyyətdə isə ailəsini (evini) idarə edə bilməməyi simvollaşdırır. Bütövlükdə götürdükdə burada ailəsini, evini dolandırıb idarə edə bilməyən adamın fikrindənkönlündən bir elə ağsaqqallıq etmək - metaforik anlamda kəndxuda-kovxa olub kəndi idarə etmək iddiasında olan lovğabazlığı kinayə hədəfidir.

Bu məsələ uzlaşan digər bir misalımız da var: ”Hətis keyxa, Mətis keyxa, bir evdə var otuz keyxa”. Burada isə bir evdə otuz keyxanın (kovxanın) - metaforik anlamda ağsaqqallıq etmək istəyənin olduğu hərkə-hərkəlik pislənilir. Yəni bir evin bir keyxasıkovxası - ağsaqqalı olar. Yoxsa ki, ailədə yerindən durub baş dəbərdənin hərəsi-ironik obraz qismində Hətis də, Mətis də evdə keyxalıq (ağsaqqallıq) etmək istəyir. Evin bir başbiləni - bir keyxası olmalıdır, daha otuz yox. Deməli, ”evində yox urvalıq, könlündən keçir darğalıq” məsəlindəki kovxa, darğa ifadəsi də sadəcə vəzifə titulu mənasında olmayıb, həm də metaforik səciyyə daşıyır.

Bunları deməkdə sözümün canı var. Düz on il əvvəl ”Ailədə və eldə ağsaqqal” yazısı ilə mətbuatda çıxış etmişdim. Şükürbəyli kəndi üzrə inzibati ərazi dairəsinin nümayəndəsi olan Nəriman Əsədovun 60 illik yubileyi işığında fikirlər söyləmişdim. İndi də o sözlərimin üstünə və mabədinə qayıdıram. Doğrudan da, Nəriman müəllim evində urvalığı, vəzifəsində kovxalığı olan ağsaqqaldır. Yəni evində-ailəsində də, elində-obasında, kəndində də yüksək nüfuz sahibi olan ziyalıdır. O, bu mərtəbəyə səbrtəmkin, ağıl, müdriklik, xətirhörmət deyilən mənəvi vardövləti ilə gəlib yetişib. Onun ömür yoluna rəsmi qaydada nəzər salsaq, dediyimizi təsdiqləyərik.

Əsədov Nəriman Şirvan oğlu 1 aprel 1951-ci ildə Cəbrayıl rayonunun Şükürbəyli kəndində anadan olub. 1957 1967-ci illər doğulduğu kənddə orta məktəb təhsili alıb. 1967-ci ildə Gəncə şəhərindəki S.Ağamalıoğlu adına Kənd Təsərrüfatı İnstitutunun mexanikləşdirmə fakültəsinə daxil olub, 1973-cü ildə mühəndis-mexanik ixtisasına yiyələnib.

Nəriman Şirvan oğlu Əsədov 1970-ci ilin avqustundan 1973-cü ilin iyununadək 836 saylı Yol Tikinti İdarəsində çilingər, 1973-cü ilin iyulundan 1976-cı ilin sentyabrına qədər isə 32 saylı Yol İstismar İdarəsində mühəndis-mexanik işləyib.

1976-1983-cü illər ərzində 131 saylı Texniki peşə məktəbində müəllim işləyən Nəriman Əsədov 1983-cü ilin mayından 1987-ci ilin iyununa kimi - 4 il Cəbrayıl rayon Aqrar Sənaye Birliyində baş mühəndis kimi fəaliyyət göstərir.

1987-ci ilin iyununda Şükürbəyli kənd Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri seçilib. 1992-ci ilin yanvarından isə RİH-nin Şükürbəyli kənd ərazi nümayəndəliyində nümayəndə işləyir.

Onu da qeyd edək ki, 1990-cı ildə kənd sovetinin deputatı olmaqla həm də rayon sovetinin deputatı seçilmişdir. Bundan başqa, dəfələrlə yaxşı işinə görə Fəxri fərmanlarla təltif olunan Nəriman Əsədov həmçinin 1995-2009-cu illərdə RİHB yanında şuranın üzvü olmuşdür.

Əsədov Nəriman Şirvan oğlunun xidmətləri dövlətimiz tərəfindən də qiymətləndirilmiş, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 iyul 2018-ci il tarixli 371 nömrəli Sərəncamı ilə ”Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə təltif olunmuşdur.

Nəriman müəllim həm də gözəl ailə başçısıdır. Üç övladının hamısı ali təhsil alıb. Yeddi nəvəsi var, baba kimi onların da qayğısına qalır... Bir sözlə, ictimaiyyətdə qazandığı yüksək nüfuzun da kökü elə onun ailədə qazandığı böyük hörmətdən gəlir.

Bəli, bizim Nəriman müəllimin varı-dövləti onun həyatda qazandığı bolluca xətir-hörmətdədir. O, həmişə deyir ki, insanlar arasında hörmətlə qarşılanırsansa, sayılırsansa, deməli, yaşayırsan. Arada olan xətir-hörmət ki, itdi, onda yaşamağın da mənası olmaz, lüzumdan-urvatdan düşərsən. Ən böyük qazanc da, var da hörmətlə ölçülür. O da ki, hər kəsin özündən, gördüyü əməlindən asılıdır. Onu da ki, Nəriman müəllim kifayət qədər özü üçün təmin edə bilib.

*Bu günlərdə Nəriman müəllimin yaşının 70-ci baharı tamam oldu. Bu münasibətlə səmimi-qəlbdən onu təbrik edirik, möhkəm cansağlığı arzulayırıq, ömrün uzun olsun deyirik.*

**Şakir Əlifoğlu**

# Beynəlxalq konfransda uğurlu çıxış




Qəzetimizin baş redaktoru Şakir Albalıyev Türkiyə və Azərbaycanın təşkilatçılığı ilə keçirilən 4-cü Beynəlxalq Novruz konfransında məruzə etmişdir. Onlayn vasitəsilə - birbaşa canlı yayımlanan konfransda ona ünvanlanan suallara da ətraflı elmi cavablar verən Şakir müəllimin elektron poçtuna sertifikat göndərilmiş və məruzəsi elektron formada kitaba salınaraq çap olunmuşdur. Beynəlxalq konfransdakı uğurlu çıxışına görə onu təbrik edib, yeni yaradıcılıq uğurları arzulayırıq!




**“Xudafərin”**

# "Qaydasız döyüş"dən açıq döyüşə




















Beyləqan torpağında əslən Cəbrayıldan olan ailələr çoxdur. Hətta Beyləqanın elə kəndləri var ki, demək olar ki, büsbütün Cəbrayıl rayonunun əhalisindən təşkil olunub. Onlar əsasən sovet hökuməti quruculuğunun ilk illərindən özlərinə gün-güzəran düzəltmək üçün Cəbrayıl torpağından köçüb bura gəlmiş və sonra da vətənin o başı da, bu başı da vətəndir deyib burada oturuşmuş, yerli sakinlər kimi burada yaşamağa başlamışlar. Belə ailələrdən biri də əslən Böyük Mərcanlı kəndindən olan və Bahar qəsəbəsində yaşayan Hüseynov Vəli Şavahat oğludur. O, 5 dekabr 1982-ci ildə ana tərəfdən Horovlu kəndindən, ata tərəfdən isə Böyük Vedidən olan Leyla İbrahim qızı Zeynalova ilə ailə həyatı qurub və elə burada da yaşayıblar. Bu evlilikdən Günel, İsgəndər, Ruslan və Mədinə adlı övladları dünyaya gəldi. Xoşbəxt bir ailə həyatı yaşayırdılar. Qızları Günellə Mədinəni gəlin köçürmüş, İsgəndəri də evləndirmişdilər. Bəlkə hələ Ruslanı da evləndirmiş olardılar, əgər nankor qonşularımız olan ermənilərin vətənimizin ərazi bütövlüyünü pozmaları olmasaydı, əgər Ruslan Qarabağımızın düşmənlərdən azad olunması naminə özünə hərbi həyatı seçməsəydi...

Mən Beyləqanda Cəbrayıllı ailələrin çoxluq təşkil elədiyini elə-belə sözgəlişi xatırlatmadım. 2020-ci ilin 27 sentyabrında başlanan 2-ci Qarabağ savaşında Bahar qəsəbəsindən üç şəhidimiz oldu. Onların üçü də əslən Cəbrayıllıdır: Mizəyev Elyar Cəlal oğlu, Hüseynov Məhəmməd Alik oğlu və Hüseynov Ruslan Vəli oğlu. Yeri gəlmişkən, qeyd edim ki, Beyləqan rayonunun ilk Milli Qəhrəmanı da əslən Cəbrayıl rayonundan olan Əkbərov Akif Abbas oğludur. Bundan başqa, 2-ci Qarabağ savaşında şəhid olmuş Beyləqanın Milabad qəsəbəsindən Nəsirov İlyas Arzuman oğlu, Yeni Mil qəsəbəsindən Abışov Babək Vaqif oğlu, Beyləqan şəhərinin özündən Hüseynli Şahin Vaqif oğlu da əslən Cəbrayıl rayonundandırlar. Həmçinin iki şəhidimizin də valideynləri Cəbrayıl rayonundan məcburi köçkün düşmüş və Beyləqan torpağında məskunlaşmışlar: 3 saylı sovxoz deyilən Şərq qəsəbəsində məcburi köçkün kimi dünyaya gəlmiş Bayramlı Tural Ədil oğlu və Birinci Şahsevən kəndində doğulmuş İsmayılzadə Vaqif Vüqar oğlu. Onların hər birinin ürəyində vətən eşqi torpaqlarımızın azad edilməsi uğrunda qanlı döyüşlərə yollandılar və şəhidlik zirvəsinə ucaldılar. Vətən torpağına axıtdıqları müqəddəs al qanları ilə şanlı zəfər tariximizi yazaraq əbədiyyətə qovuşdular.

10 may 1988-ci ildə Bahar qəsəbəsində dünyaya göz açan Hüseynov Ruslan Vəli oğlunu da hərbi həyatı seçmək yolundan heç kəs çəkindirə bilmədi. 1994-2005-ci illərdə kəndlərindəki orta məktəbi bitirdi. 2006-cı ilin iyununda həqiqi hərbi xidmətə yollandı. Kəşfiyyatçı kimi il yarım Gəncə şəhərində xidmət etdi. 2008-ci ilin yanvarında əsgəri borcunu başa vurdu. Bir müddət Bakı şəhərində gözətçi işlədi. Lakin vətəni müharibə içində olan bir gənc üçün belə bir "dinc həyat" yaşamaq onu qane etmirdi. Axı o, həm də idmançı idi. Orta məktəbin 8-ci sinifində oxuduğu vaxy Tümendə yaşayan dayısının yanına da getmişdi. Orada qaydasız döyüş növü və taekvondo üzrə idman məktəbinə də getmiş, yaşıdları arasında 2-ci yeri də tutmuşdu.

Öz aləmində bunları da xatırladı, düşünüb-daşındı Ruslan. Axı Rusiyada-Tümendə qaydasız döyüşlərdə seçilib-fərqlənmişdi, bəs indi vətənin bu ağır günlərin-



də bir idmançı gənc kimi kənardan seyrçi kimi dayanıb dursunmu? Özlüyündə qəti qərara gəlmişdi Ruslan: müddətdən artıq xidmət edən gənc kimi 2013-cü ildən ordu sıralarına yollandı. Hətta valideynləri də onu bu addımından geri çəkindirə bilmədilər. Müharibənin əsl mahiyyəti də elə qaydasız döyüş deməkdir. İdman növü kimi gücünü sınadığı və üstünlük nümayiş etdirdiyi qaydasız döyüşünü o, artıq real döyüş səhnəsində - Qarabağ müharibəsində davam etdirib, düşmənə həddini tanıtmaq istəyirdi. Onun üçün əsl qaydasız döyüş əməliyyatı haqsız, ədalətsiz düşmənə qarşı qanlı-qadalı döyüş əməliyyatında şücaət



göstərib, bu döyüşdən-bu müharibədən qələbə ilə çıxmaq demək idi. Hərdən öz-özünə fikirləşirdi də ki, elə bu idman növünü məhz vətəninə xidmət etmək üçün mənimsəyib-öyrənmişəm. Bəli, bütün idman növlərində qazanılan uğurlar son nəticədə vətənin bayrağını daha yüksəklərə qaldırmaqla vətənə şan-şöhrət gətirmək üçündür. Bu idman növlərini tam sərbəst şəkildə praktiki baxımdan həyata keçirmək imkanı isə qanlı-qadalı müharibə meydanında mümkün olur.

Ruslan Vəli oğlu Hüseynov kiçik çavuş kimi, manqa başçısı kimi öz avtomatı ilə və döyüşçü dəstəsi ilə namərd düşməni müharibə meydanında məğlub edib, vətənimizin Qələbə bayrağının yüksəklərdə dalğalanması üçün hərbi həyatı seçmişdi. Özünün idmançı keyfiyyətlərini döyüşçülük qabiliyyətləri üstündə kökləmişdi. Beyləqandakı Qəhrəmanlı qəsəbəsində kəşfiyyatçı bölüyündə xidmətə başladığı vaxtlardan da hərbi hissələr arasında keçirilən idman yarışlarında iştirak edir, Fəxri Fərmanlar, hədiyyələrlə mükafatlandırılırdı. Əslində, bütün bunlar hamısı onun qəlbində-düşüncəsində sonda bir amala söykənirdi: idmanda qazandıqları keyfiyyətləri müharibə meydanında əsl düşmənlə mübarizədə əməli olaraq həyata keçirmək!..

Ruslanın atası Vəli kişi ilə söhbət edəndə deyir ki, oğlumun şəkil çəkmək qabiliyyəti də vardı, idmançı idi. Amma onun ən çox sevdiyi hərbi həyat idi. Biz valideyn kimi onu hərbçi olmaq fikrindən qaytara bilmədik. O, vətənə hərbçi kimi xidmət etməyi hər şeydən üstün tuturdu.



Ruslan Hüseynov 2016-cı ilin Şanlı Aprel döyüşlərində də kəşfiyyatçı kimi iştirak etmişdi.

Sentyabrın 27-də başlanan Vətən müharibəsindəki döyüş yolu Füzulinin Şükürbəyli kəndindən başlayan Ruslan Hüseynov Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Laçın-Güləbird, Xocavənd, Hadrut ərazilərində düşmənə öz gücünü göstərdi. Şuşa ətrafından geriyə manevr edib, Domu kəndinin, Tuğ kəndinin düşmənlərdən azad edilməsinə yollandı.

Ruslanın atası Vəli dayı deyir ki, axırıncı dəfə oktyabrın 30-da günorta saat 12-də tarix müəlliməsi olan bacısı Günelə mesaj yazıb ki, hər şey yaxşıdır. Zəng etməyin. Axşam Ruslana zəng çatmadı, 31-də yenə zəng etdik, zəng çatmadı, getdim axtardım, tapa bilmədim.

Şəhid atası sonra danışdı ki,



Ruslan həm də sürücü idi. Şuşaya gedən Xocavənd yolunda - Qırmızı bazar tərəfdə, Tuğdan enəndə oktyabrın 31-dən noyabra keçən gecə Ruslangilin maşını minaya düşür.

Göründüyü kimi, xain düşmən öz alçaq hərəkət ilə Ruslan kimi bir idmançı igidi məhv edir, yoxsa ki, üzbəsurət döyüşdə alçaq düşmənin yüzü də gəlsə, onun qarşısında tab gətirə bilməzdi.

Ermənilər hər vaxt, həmişə belə namərd hərəkət ediblər, mərdi-mərdanə döyüşdən qorxublar. Çünki onlarda mərdanəlik deyilən keyfiyyətdən heç vaxt heç bir əsər-əlamət olmayıb, namərd olduqları üçün də həmişə alçaqlıqlara əl atıblar, əclaflıq ediblər. Ancaq nə qədər əclaflıqlara əl atsalar da, Ruslan kimi igid el oğullarımız mənfur düşmənin dərsini verdi, düşmənə öz cızığını tanıtdı.

Ruslanın nəşini noyabrın 24-də Füzuli rayon Diaqnostika Mərkəzindən götürüb doğulub-yaşadığı Bahar qəsəbəsinə gətirirlər və qəbiristanlıqdakı şəhidlər üçün ayrılmış yerdə dəfn edirlər.

Vəli dayı evlərindəki otaqlardan birini Ruslanın ev-muzeyi kimi düzəldib. Qoy bu günkü və gələcək nəsillər Ruslan Hüseynovun ev muzeyini ziyarət etsinlər, vətən yolunda şəhadətə yetişən gəncimizin qəhrəmanlığından fəxarət hissi keçirsinlər.

Şəhid atası söhbət zamanı Cəbrayıl rayon İcra Hakimiyyətindən razılıqla danışdı, deputatımız Ceyhun Məmmədovun onlara gəldiyini, qayğıkeşlik göstərdiyini də dedi.

Ruslan Hüseynovun qəhrəmanlığı dövlətimiz tərəfindən də yüksək qiymətləndirilmiş, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

**Şakir ALBALIYEV**

# Ramazan bayramı və orucluq mənəvi kamilləşmə modelləri kimi



**Şakir Əlif oğlu ALBALIYEV**
*AMEA Folklor İnstitutu, filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*albaliyevshakir@gmail.com*

**Məsələnin qoyuluşu:** Ramazan, yaxud xalq arasında başqa adı ilə deyildiyi kimi, Orucluq bayramı tipologiyasına görə dini bayramdır. Çünki Azərbaycan xalqı bu bayramı əsrlər öncə İslam dinini qəbul etdikdən sonra qeyd etməyə başlayıb və bu günə kimi qeyd etməkdədir. Ancaq məsələ burasındadır ki, mənşəyinə görə dini olan bu bayram etnokulturoloji tipologiyasına görə artıq xalq bayramına çevrilib. Tədqiqatın əvvəlində deyildiyi kimi, dini bayram o bayrama deyilir ki, onu yalnız dindarlar qeyd etsin. Azərbaycanda sırf dindarlar tərəfindən qeyd olunan bayramlar vardır. Bunlar, əsasən, dinin əsas simalarının mövludu ilə bağlı bayramlardır. Məsələn, cəfəri məzhəbində olan müsəlmanlar Əhli-Beyt imamlarının doğum günlərini bayram kimi qeyd edirlər. Belə bayramlar çoxdur və onların dairəsi yalnız dindarları əhatə edir. Yəni bu bayramlar haqqında onu qeyd edən dindarlardan başqa, çox az adam xəbər tutur. Lakin Ramazan və Qurban kimi bayramlar İslam dini ilə bağlı bayramlar olsa da, onu təkcə dindarlar yox, bütün xalq qeyd edir. Bu nöqtə bizim tədqiqatımız baxımından son dərəcə əhəmiyyətlidir. Fikrimizcə, Ramazan və Qurban bayramlarını təkcə dindarların deyil, dindar olmayan, ömründə heç vaxt namaz qılıb, oruc tutmayan insanların da qeyd etməsi, hamının bir-birini bu bayram münasibətilə təbrik etməsi Ramazan və Qurban bayramının artıq ümumxalq bayramına çevrildiyini göstərir. Bu cəhətdən biz belə hesab edirik ki, Ramazan və Qurban dini mənşəli xalq bayramlarıdır.

Digər tərəfdən, bir cəhəti də nəzərə almaq lazımdır. Biz dini bayram deyərkən, adətən, İslam dinini nəzərdə tuturuq. Ancaq dinlərin tarixi təkcə İslam, Xristianlıq, İudaizm kimi vəhy dinlərindən, başqa sözlə, səmavi dinlərdən ibarət deyildir. Din tarixində səmavi olmayan çoxlu dinlər vardır. Bu cəhətdən, əslinə qalsa, bütün bayramlar öz dövrünün dinləri, yaxud mifoloji-dini inancları ilə əlaqəlidir. Elə götürək məşhur xalq bayramı olan Novruzu. Tədqiqatçılar Novruz bayramının Mitraizm, Zərdüştilik kimi dinlərlə bağlı olduğunu təsdiq edirlər. Bu cəhətdən, Ramazan, Qurban kimi Novruz da, Xıdır Nəbi də dinlə bağlıdır. Xıdır Nəbinin adı Xızır şəklində "Quran"da çəkilir. Ancaq biz buna baxmayaraq, Novruz və Xıdır Nəbini xalq bayramı, Ramazan və Qurbanı dini bayram hesab edirik. Fikrimizcə, bu yanaşmanı dəyişmək və məsələyə elmi baxımdan yanaşmaq, "xalq bayramı" anlayışının meyarlarını dəqiq şəkildə müəyyənləşdirmək lazımdır. Beləliklə, bizim yanaşmamıza görə:

Dini bayramlar - sırf dindarlar tərəfindən keçirilən bayramlar;

Xalq bayramları - mənşəyindən asılı olmayaraq bütün xalq tərəfindən keçirilən bayramlardır.

Bu cəhətdən, Ramazan və Qurban bayramları dini mənşəli xalq bayramlarıdır.

İşin məqsədi: Tədqiqatın aparılmasında əsas məqsəd Ramazan bayramı və orucluğu mənəvi kamilləşmə modelləri kontekstində araşdırmaqdır.

Ensiklopedik qaynaqlarda göstərildiyi kimi, İslam dininin müqəddəs bayramları içərisində Ramazan, yaxud başqa adı ilə desək, Orucluq bayramı mühüm yer tutur. Bu bayramın tarixi müsəlman təqvimi ilə hicrinin 2-ci ilindən (miladi 623-cü il) başlanır. Oruc Ramazan ayında tutulduğu üçün ona "Ramazan orucu" da deyirlər [9].

Ramazan bayramı (Fitr bayramı) - şəvval ayının 1-ci günü olub, Ramazan ayının sonunda, orucun sona çatması münasibəti ilə qeyd edilir [8].

Orucluğun keçirildiyi Ramazan ayı hicri-qəməri təqviminin doqquzuncu və ən müqəddəs ayıdır. Bu ayda "Quran" nazil olmuşdur [2, s. 225].

Ramazan ayında oruc tutmaq Allahın əmridir. "Quran"ın "əl-Bəqərə" surəsinin 183-cü ayəsində deyilir: "Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi. Bəlkə, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!" [5, s. 26].

Müqəddəs kitabımızın bu ayəsində "Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi" ifadəsi diqqətimizi xüsusi cəlb edir. "Quranı" nahaqdan hikmətlərlə dolu sirli kitab hesab etmirlər. Çünki bu kitabın hər sözü, hər ayəsi bizə min bir hikmətdən soraq verir. İlahiyyatşünaslar təsdiq edirlər ki, "Quran" məna baxımından qatbaqat quruluşa malikdir. Hər sözün altında çoxlu məna qatları yatır. Birinci məna qatı hamının oxuyub başa düşməsi üçündür. Digər məna qatlarına isə hərə öz intellektual dərəcəsində nüfuz edə bilər. Bu cəhətdən, "Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi" ifadəsi birmənalı şəkildə bəyan edir ki, orucluq yalnız İslam dini ilə bağlı deyildir və kökləri nəinki İslamdan əvvəlki dinlərə, ümumiyyətlə vəhy dinlərindən qabaqkı dövrlərə də gedib çıxır.

Qeyd edək ki, Ramazan ayında oruc tutulması müsəlmanlara hicri təqviminin ikinci ilində, yəni miladi təqvimlə 622-ci ildə hökm edilmişdir. Ramazan ayının orucu insanlara Uca Allahı sevmək yollarını öyrədir, insanlara öz iradi kimliyini, fiziki və mənəvi cəhətdən dözümlülüyünü yoxlamağa imkan verir. Orucluq insanlara təmiz vicdanlı olmağı öyrədir.

İslam dinində Ramazan ayı xüsusi hörmətə malikdir. Bu ay digər aylara nisbətən hörmətli və müqəddəs ay hesab edilir. Ona görə də bu ay haqqında "On bir ayın sultanı" vəsfini işlədirlər.

Orucluq hökm və dini adət kimi hicri təqviminin 2-ci ilində İslam dininin peyğəmbəri Məhəmməd salavatullah tərəfindən "Quran"da nazil olunmuş ayəyə əsasən əmr edilmişdir. Dini mənqəbələrə görə, Ramazan ayının axırıncı on günlüyünə aid gecələrdən birində Quran nazil olunmuşdur. Bu barədə dəqiq gün yoxdur. Belə hesab edilir ki, "Quran" Ramazan ayının 22-dən 23-nə, ya da 26-dan 27-nə keçən gecələrdən birində endirilmişdir. Həmin gecəni "Leylət əl-Qədr", yəni "Qədr gecəsi" adlandırırlar. "Quran"da Qədr gecəsi haqqında eyni adlı surə vardır. Orada deyilir:

"1. Həqiqətən, Biz Quranı Qədr gecəsi [lövhi-məhfuzdan] dünya səmasına nazil etdik.

2. [Ya Peyğəmbər] Qədr gecəsinin nə olduğunu bilirsənmi?!

3. Qədr gecəsi [savab cəhətdən] min aydan daha xeyirlidir!

4. O gecə mələklər və ruh [Cəbrail] Rəbbinin izni ilə hər bir işdən ötrü yerə enərlər.

5. O gecə dan yeri sökülənə kimi salamatlıqdır!" [5, s. 638].

"Quran"dan da aydın olduğu kimi, hələ İslamdan əvvəl də oruc tutmaq ənənəsi var idi. Orucluq ayı "Eyd-əl-Fitr" ("Fitrə bayramı) bayramı ilə tamamlanır. Bayram günü səhər tezdən bütün imkanlı müsəlmanlar imkanı olmayanlara fitrə adlanan yardım edirlər. Fitrənin qədərini hesablayarkən fitrə verənin ailə üzvlərinin sayı əsas götürülür.

Orucluğun "Eyd-əl-Fitr" adlanan bayramının sabit keçirilmə qaydaları vardır. Onlar aşağıdakılardır:

1. Bayram edildiyi gün artıq oruc tutmaq olmaz. Bu gün tutulan oruc haram hesab olunur.

2. Bayram günü üçün islami qaydalara uyğun olaraq paklanmaq lazımdır. Buraya çimmək, bayram qüslü almaq, təmiz paltar geyinmək kimi qaydalar aiddir.

3. Bayram günü ehtiyati-vacibə əsasən sübh tezdən oruc niyyət edilir, lakin artıq bayram gününün olması qətiləşəndən sonra, oruc bir qurtum su ilə, yaxud bir xurma ilə açılır və bayram namazı qılınır. Oruc halda qılınan bayram namazı batildir.

4. Qaydalardan biri də bayram günü müsəlmanların təbrikləşmələrinin bəyənilən əməl hesab edilməsidir.

Qeyd edək ki, xalqımızın əsrlər boyu qeyd etdiyi və adət-ənənələrini göz bəbəyi kimi qoruduğu bu bayram artıq 1993-cü ildən müstəqil Azərbaycan Respublikasında dövlət səviyyəsində qeyd olunur.

Orucluq Ramazan bayramının keçirilməsində əsas məqsəd müsəlman olanların bir araya gəlməsi, xoş bir ovqatda vəhdət etmələridir. Onlar bayram günü toplu halda namaz qılır və ibadəti tamamladıqdan sonra bayram edirlər. Bayramda müsəlmanlar bir-birinin ziyarətinə gedir, qohum-əqrəbalar bir-biri ilə görüşüb-bayramlaşırlar. Bütün bunlar cəmiyyət içərisində olan inciklikləri, küsülülükləri aradan qaldırır. Bayramda kasıblar və yoxsulların da verilmiş fitrələrlə sevindirilməsi cəmiyyət daxilində sosial-mənəvi harmoniya yaradır [8; 9].

Ramazan ayının əsas adəti oruc tutmaqdır. Bir ay (təqribən, 28-29-30 gün) davam edən orucluq ayında günün işıqlı vaxtı hər hansı qida qəbul etmək, siqaretdən istifadə etmək, cinsi münasibət və s. qadağandır.

Bütün bunlara diqqət yetirdikdə görürük ki, orucluq mənəvi təmizlənmə mexanizmidir. İnsan oruc tutmaqla özünə fiziki və mənəvi əziyyət versə də, bunun əsasında mənəvi amil durur. Bu, özünə əzab vermə yox, mənəviyyatın təmizlənməsi və möhkəmləndirilməsi üsuludur.

"Quranın" "əl-Bəqərə" surəsinin 187-ci ayəsində deyilir ki, "...sübh açılınca, ağ sap qara sapdan fərqlənincəyə qədər yeyib için; sonra gecəyə qədər orucunuzu tamamlayın" [5, s. 27].

Bu, oruc tutmağın müqəddəs kitabda buyurulduğu qaydasıdır. Oruc tutan adam əvvəlcə oruc tutmaq haqqında niyyət edir və daha sonra "Quran"da buyurulduğu kimi, gün ərzində özünü qida qəbul etməkdən qoruyur. Burada iki cəhət özünü göstərir: niyyət və özünüqoruma.

Əslində, orucluğun mahiyyəti niyyətə bağlıdır. Oruc tutanlar üçün iki cür niyyət var:

Birincisi, orucluq ayından əvvəlki niyyət axşamında edilən niyyət. Bu, əsas niyyətdir.

İkincisi, hər gün oruc tutmazdan əvvəl edilən niyyət. Bu niyyət oruc tutanın öz istəyinə bağlıdır. Çünki niyyət axşamında edilən niyyət əsasdır. Hər bir oruc tutan niyyət edir ki, orucu Allaha xatir tuturam. Demək, məsələnin mahiyyəti insanla Allah arasında olan münasibətlərlə bağlıdır. Oruc tutan orucluğun bütün əzab-əziyyətinə Allaha xatir dözür: o, oruc tutmaqla Allahın razılığını qazanmaq istəyir. Beləliklə, orucluqda əsas olan niyyətdir.

Niyyət İslamda yüksək qiymətləndirilən mənəvi keyfiyyətdir. Məlum olduğu kimi, niyyət insanın arzusu, istəyi, yaxud qabağına qoyduğu məqsəddir. Demək, niyyət gələcəkdə həyata keçiriləcək işlərin düşüncədə olan halıdır. İnsan oruc tutmağı niyyət etməklə etmək istədiyi əməli artıq xəyalən öz qəlbində edir. Təsadüfi deyildir ki, oruc tutanların mənəvi halı oruc tutmayanların halından fərqlənir. Oruc tutmayan insanlar oruc tutanların əzab çəkdiklərini güman edirlər. Ancaq oruclu insanlar qəlbən sevinc içərisində olur, tutduqları orucun hər dəqiqəsindən zövq alır və maraqlıdır ki, yemək-içmək onların heç yadına da düşmür. Oruc tutanın sanki yemək nəfsi ölür. Elə orucluğun bütün mahiyyəti də buna bağlıdır. Orucluq insana nəfsi üzərində qələbə çalmağa imkan verir. İnsan bu qələbəni ilk növbədə etdiyi niyyətlə qazanır. Oruc niyyəti etmək orucla çatmaq istədiyin arzulara xəyalən çatmaq deməkdir. Bu da insanın qəlbində daim sevinc, xoş ovqat, yüksək mənəvi hal və keyfiyyətlər yaradır.

İnsanlar oruc tutmağa öz "mən"lərini ilahi dəyərlərə təmizləmək, paklamaq, süsləndirmək vasitəsi kimi baxırlar. İslam peyğəmbəri buyurur ki, "Ramazan ayı gələndə cənnətin qapıları açılar, cəhənnəmin qapıları bağlanar, şeytanlar da zəncirdə olar" [8; 9].

Orucluq ayında "şeytanların zəncirdə olması" oruc tutmağın mənəvi təmizlənmə mexanizmi kimi işləməsində, çalışmasında xüsusi rol oynayır. Belə ki, İslama görə, İblis daim şeytanlar vasitəsilə insanları yoldan çıxarır, onları günah əməllər etməyə sövq edir. Bu cəhətdən nəfsə, yəni dünyanın bütün maddi və mənəvi nemətlərinə qarşı istək hissinə malik olan insan dili, gözü, əli, ayağı, qəlbi və s. ilə daim günahlar edə bilir. Bu günahların əsasında şeytanların vəsvəsəsi durur. Şeytan günah əməlləri cazibədar göstərməklə daim insanı günah etməyə sövq edir. Bu da insanın mövcud günahlarının üstünə günah gətirir. Təbii ki, mömin insan daim tövbə etməklə günahlardan təmizlənməyə çalışır. Lakin Allah öz yaratdığı bəndəyə Ramazan ayında günahlardan arınmaq, təmizlənmək, paklanmaq üçün xüsusi şərait yaratmışdır. Bu şərait isə ondan ibarətdir ki, Ramazan ayında şeytanlar zəncirə vurulur: onlar insanları yoldan çıxarmaq imkanından məhrum olurlar. Bu da insanlara öz günahlarından təmizlənmək üçün bol şanslar verir. Ramazan ayında da günahlardan təmizlənməyin mexanizmi oruc tutmaqdır. Oruc tutan orucu təkcə mədəsi ilə tutmur, yəni özünü təkcə yeməkiçməkdən saxlamır. Oruc tutan insan:

- gözü ilə oruc tutub, harama tərəf baxmır;

- dili ilə oruc tutub, qeybət etmir, küfr, böhtan danışmır;

- əli ilə oruc tutub harama əl vurmur;

- Ayağı ilə oruc tutub günah əməllərin arxasınca getmir;

- Qəlbi ilə oruc tutub, günah işlər, haram şeylər haqqında düşünmür.

Göründüyü kimi, oruc tutan öz qəlbini nəfsin təhrik etdiyi hərəkətlərdən qorumalıdır. Bu baxımdan, "nəfs" islami düşüncədə mühüm anlayışlardan biridir.

Tədqiqatlarda "nəfs" anlayışının bu mənaları göstərilmişdir: ruh, can, həyat, varlıq, nəfəs, insan, həva, həvəs, qan, bədən, bədəndən qaynaqlanan ədəbsiz arzu-istəklər və s. [1, s.75; 3, s.1472]. S.Uludağ göstərir ki, "nəfs" "Quran"da ruh, zat, nəfsə pis işlər görməyi əmr edən, nəfsi və etdiyi pislikləri qınama, hüzura çatmaq mənalarında, təsəvvüfi qaynaqlarda isə pis əxlaq və arzular mənasında işlənir [7, s. 526-527].

Göründüyü kimi "nəfs" ümumiyyətlə istək gücü, arzu gücüdür. Bu güc insana yaşamaq həvəsi verməklə bərabər, onda gördüyü şeylərə qarşı istək oyadır. Lakin insanın ağlı həmin istəklər üzərində hakimlik edərək nəfsi cilovlayır. İnsan nəfsini cilovlamaq üçün güclü iradəyə sahib olmalıdır. İradəni gücləndirən ən mühüm vasitələrdən biri oruc tutmaqdır.

İnsan zamanla öz nəfsinə tabe olub, günahlara da yol verir. Günahlardan təmizlənmənin vasitəsi tövbədir. Orucluq, əslində, həm də tövbələrin qəbul olunduğu aydır.

A.Köksal yazır ki, "tövbə" - ərəb sözü olub, tabe yatubu maddəsindən olan məsdərdir. Allaha dönüş və yönəliş mənasındadır. Peşman olaraq yönəlməyi bildirir. Günahlardan qayıtmaq, günah işləməyi hər bir cəhətdən tərk etmək anlamındadır". [4, s. 39].

"Tövbə" İslamda o qədər mühüm bir anlayışdır ki, Allahın adlarından biri də Təvvabdır. M.Məhdəvi Kəni yazır ki, "Allah tövbələri qəbul edər, Onun tövbə qapısı daim açıqdır. Yaxud: "Hər bir dərdin dərmanı vardır. Günahların da dərmanı istiğfardır"" [6, s. 181].

Quranda tövbə ilə bağlı çoxlu ayələr vardır. Məsələn, "Əl-Furqan" surəsinin 71-ci ayəsində deyilir: "Hər kəs tövbə edib yaxşı iş görsə, o, şübhəsiz ki, Allaha tərəf yaxşı bir dönüşlə (Allahın rizasını qazanmış halda) dönər" [5, s. 348].

Beləliklə, oruc tutmağın mənəvi təmizlənmə mexanizmi kimi əsas faydalarından biri odur ki, günahlardan oruc tutmaq yolu ilə xilas olmaq istəyən insanın tövbəsini Allah tez bir zamanda qəbul edir.

Oruc tutmaq mənəvi təmizlənmə mexanizmi kimi insanı etdiyi günahlardan qoruyur. Məsələn, orucu qəsdən, yəni bilərəkdən pozanlar onun əvəzini oruc tutmaqla bərabər, tövbə etmək və kəffarəsini, yəni maddiyyatla ölçülən əvəzini ödəməklə verə bilərlər. Kəffarənin şərti isə ya 60 gün ərzində oruc tutmaq, ya da ki 60 yoxsulu yedirtməkdir. Bundan başqa, 60 günlük kəffarə orucunun üzərinə bir günlük qəza orucu da gəlir.

Oruc tutmaqla öz qəlbini hər cür pisliklərdən təmizləmiş insanın qəlbi sevinc hissi ilə aşıb-daşır. Bu coşqu, xoş emosiya özünü Ramazan bayramında daha parlaq şəkildə göstərir. İnsan saf və ixlas qəlblə başqalarını təbrik edir, mənəvi sevinc payını digərləri ilə bölüşür. Bundan başqa, yaxınlarının qəbirlərini ziyarət edib, onların günahlarının bağışlanmasını dua etməklə qəlbində rahatlıq tapır.

Bu cəhətdən, vikipedik qaynaqda göstərildiyi kimi, "Ramazan ayı orucluq, insan nəfsinin paklığı, eyiblərin və naqisliyin islah olunması, ağıl, iman və iradənin saflaşması dövrüdür. İnsan bu ayın dua və ibadətləri ilə eyiblərdən saflığa, saflıqdan kamilliyə doğru gedir. Bu ay ruhun tərəqqisi, Allaha tərəf pərvaz etməsidir. Ramazan ayında fani varlıqlar sanki savaş meydanına çevrilir. İmanla nəfs bu meydanda çarpışır. Nəfs hər imanlı işi udmaq, yeyibiçmək istəyir, pis vərdişlərin davamını diləyir. İnanclar mətanətlə buna qarşı çıxır, dil yalandan, göz və könül haramdan uzaqlaşır" [9].

**İşin elmi nəticə və yenilikləri:** Beləliklə, Ramazan ayının bütün bu nemətlərinə, yəni nəfsin paklığına, eyiblərin və naqisliklərin islah olunmasına, ağıl, imanın, təqvanın, iradənin saflaşmasına, mənəvi kamilliyə, ruhun tərəqqisinə, nəfs üzərində qələbəyə və s. yalnız mənəvi təmizlənmə mexanizmi olan oruc tutmaq yolu ilə çatmaq mümkündür. Oruc tutan insan gözü ilə oruc tutub, harama tərəf baxmır, dili ilə oruc tutub, qeybət etmir, küfr, böhtan danışmır, əli ilə oruc tutub harama əl vurmur, ayağı ilə oruc tutub günah əməllərin arxasınca getmir, qəlbi ilə oruc tutub, günah işlər, haram şeylər haqqında düşünmür.

***İşin nəzəri və praktiki əhəmiyyəti:*** Məqalənin nəzəri əhəmiyyəti bu işdən bayramlar haqqında aparılacaq başqa tədqiqatlarda nəzəri qaynaq olaraq istifadə imkanları, praktiki əhəmiyyəti isə ali məktəblərdə mərasim folklorunun tədrisi prosesində praktiki vəsait kimi istifadə imkanları ilə müəyyənləşir.

## ƏDƏBİYYAT

1. Dodurgalı, A. Nefs ve Eğitimi // "Din Eğitimi Araşdırmaları" Dergisi. Sayı 5, - 1998. - s. 75-82.
2. İslam: tarix, fəlsəfə, hüquq. Ensiklopedik lüğət / Tərtibçi müəlliflər: A.Əlizadə, E.Səmədov. - Bakı: 2016, - 308 s.
3. Karacabey, S. Ülül-Azm Peygamberler ve Ortak Yönleri // T.C.Uludağ Üniversitesi İlahiyat Fakültesi. Sayı: 7, - 1998. - Cild 7, - s. 297- 313
4. Köksal, A. Peygamberler Tarihi / 2 cilt / A.Köksal. - Ankara: Türkiye Diyanet Vakfı Yayınları, - 2007, - Cild 1 - 335 s., - c. 2, - 354 s.
5. Qurani-Kərim / Ərəb dilindən tərcümə edənlər: Z.Bünyadov və V.Məmmədəliyev. - Bakı: Azərnəşr, - 1992. - 714 s.
6. Məhdəvi Kəni, M. İslamda əxlaq / Tərc. ed. Cəfərov C. / Ayətullah Məhəmmədrza Məhdəvi Kəni. - Bakı: Qələm, - 2005. - 400 s.
7. Uludağ, S. "Nefs" Maddesi // İslam Ansiklopedisi. - İstanbul: - 2006. - s. 526-529
8. https://az.wikipedia.org/wiki/Ramazan_bayram%C4%B1
9. www.anl.az ramazanayi

# Otağını bayrağımızla işıqlandıran şəhid










Şahin Vaqif oğlu Hüseynli 4 may 1995-ci ildə Beyləqan şəhərində anadan olmuşdu. Babəkdən, Pərvizdən sonra ailənin üçüncü uşağı idi. Əslən Cəbrayılın Süleymanlı kəndindən olsalar da, atalarıgil çoxdan Beyləqana köçmüş ailələrdən idi. Anaları Hacıyeva Tərgül Balaca qızının da atası Ağcabədidən, anası Beyləqandan idi. Beləcə, Vaqiflə Tərgül bir-birlərinə könül verib, Beyləqan şəhərində özlərinə rahat gün-güzəran qurub, xoşbəxt ailə həyatı yaşayırdılar.

Vətən üçün üç oğul övladı böyüdürdülər. Təəssüf ki, həyatın gözlənilməz acı sürprizləri də olur. 2004-cü ilin avqustunda adıbatmış xərçəng xəstəliyi Vaqif kişinin ömrünü yarıda qırdı, Tərgül ana övladlarını təkbaşına böyüdəsi oldu, boya-başa çatdırdı. Babəki, Pərvizi evləndirdi...

Şahini isə evləndirmək istəyəndə, yox, hələ qabaqda arzularım var, öncə vətən, sonra şəxsi həyatım deyib istəyində israr etdi. ”Atalar üçdən deyib” məsəlimizi xatırlayıram. Şahin ailənin 3-cü övladı idi. ”Məlikməmməd” nağılında Məlikməmməd də ailənin 3-cü övladı, qardaşlarının kiçiyi idi. ”Ağatlı oğlan” və digər nağıllarımızda da üçüncü qardaşın başı bəlalı olur, qovğalar, müsibətlər çəkir, fədakarlıqlar göstərir, düşmən üzərində qələbələr qazanır.

Görünür, ailədə üçüncü qardaş kimi dünyaya gələn Şahinin də taleyində gələcəkdə özünü vətən yolunda qurban verməyi əvvəlcədən ilahi tərəfindən alın yazısı imiş. Belə ki, 2002-2013-cü illərdə Ramiz Abbasovun adını daşıyan Beyləqan şəhər 4 saylı tam orta məktəbi bitirəndən sonra sənədlərini Hərbi Akademiyaya vermişdi. Lakin Naxçıvan şəhərinə düşdüyündən, ailələrindəki maddi çətinlik ona təhsilini davam etdirməyə imkan vermədi. Ancaq heç bir qüvvə onun ürəyində hərbçi olmaq arzusunun və vətənə döyüşçü kimi xidmət etmək istəyinin üstündən xətt çəkə bilməzdi. Çünki o, ”sonbeşiyim-evim-eşiyim” məsəlimizdə vurğulanan fikrə müvafiq olaraq həm də ”sonbeşik-yurda keşik” qənaətini özünə aşılamışdı. Bilirdi ki, ata-baba yurdunun işğaldan azad edilməsi məhz onun kimi vətən oğullarının qəhrəmanlığı hesabına başa gələcəkdir.

Böyük qardaşı Babəklə söhbət zamanı dedi ki, Şahinin ən böyük arzusu Qarabağımızı azad etmək və Süleymanlı kəndində Azərbaycan bayrağını ucaltmaq idi. Babək bir məlumatı da bildirdi ki, evimizdəki bir otağı onun bəylik otağı kimi düzəltmişdik. O vaxt o, bizə dedi ki, madam ki, bu otağı mənə ayırmısınız, onda burdakı işığı dəyişdirib, üçrəngli bayrağımızı dalğalandıran işıq effekti verən elektrik lampası ilə əvəz edin. Bu gün həmin otağı Şahinin xatirə muzeyinə çevirmişik, - deyən şəhid qardaşı otağın işığını yandırıb, işıq vasitəsilə bayrağımızın rənglərinin dalğalandığını da mənə göstərdi.

Şahinin ev-muzeyində diqqətimi əl ilə çəkilmiş gerbimizin rəsmi də cəlb etdi. Şahinin rəssamlıq bacarığı da var imiş. Bu, Şahinin əl işi idi. Bayrağımıza, gerbimizə olan sevgisi onun otağında əyani sübut kimi gözlərimizin qarşısında idi. Himnimizin sözlərini isə o, ürəyində daşıyıb-səsləndirirdi ki, bu coşqu hissi ilə də o, öz tankı ilə düşmən üzərinə şahin kimi şığıdı. Dövlət müstəqilliyinin üç atributu - Bayraq, Gerb və Himn Şahin Vaqif oğlu Hüseynlinin həyatının ayrılmaz hissəsi idi. Dövlət, vətən anlayışlarını o, varlığının mənası hesab edirdi. Onun 25 illik qısa həyat yolunu səhifələdikcə biz bunu əyani olaraq görürük.

2013-cü ilin oktyabrında həqiqi hərbi xidmətə çağırılan Şahin Hüseynli əvvəlcə 3 ay Bakıda Badamdar qəsəbəsində döyüş məşınının komandiri kursunu oxuyub, kiçik çavuş rütbəsi alır. Sonra isə hərbi xidmətini Gəncə şəhərində davam etdirir. 2015-ci ilin aprelində hərbi xidmətini başa vurur. Bir müddət mülki həyat yaşasa da, ürəyindəki hərbi həyata olan arzusunu saxlaya bilmirdi. 2016-cı ilin Şanlı Aprel döyüşləri zamanı



Şahin anası Tərgül Hacıyeva ilə



Şahin qardaşları, anası və nənəsi Qənahət Salman qızı ilə





könüllü olaraq müharibəyə getmək istədi. Lakin müharibə tez dayandırıldığından, onu aparmadılar. Elə bu hadisələrdən bir müddət sonra Bakı şəhərinə gedib MAXE kimi tankçılıq kursunda oxudu. Tankda tuşlayıcı operator sənətinə yiyələndi. Bir müddət Beyləqanda işlədi, lakin buna səbri çatmadı. Dedi ki, mən tankçıyam, tank qoşunlarında da xidmətimi davam etdirməliyəm. Beləliklə o,



Füzuli rayonunun Əhmədbəyli kəndinə gəlib tankçı kimi xidmətini davam etdirməyə başladı.

Şahin vaxtaşırı olaraq təlimlərdə iştirak edir, yaxşı atıcı kimi tank atışlarında fərqlənir. Milli Qəhrəman Şükür Həmidov onun bu keyfiyyətini yüksək qiymətləndirib, Türkiyəyə gedib, orda xüsusi təlim kursunda oxumağını tövsiyə edir. Bu arzuyla da yaşayırdı, sonra da zabitlik məktəbində oxuyacağam deyirdi. Yüksək döyüşçülük peşəkarlığına görə Şahin Hüseynli dəfələrlə hərbi hissə komandanlığı tərəfindən Fəxri Fərmanlar almışdı.

2020-ci ilin 27 sentyabrında da elə burdan başladı ürəyi vətənimizin azadlığı ilə döyünən igid eloğlumuzun döyüş yolu. Füzulinin bir neçə kəndinin azad olunmasında cəsur tankçı kimi-tuşlayıcı tank operatoru kimi igidliklər göstərdi.

Şahin Hüseynlinin döyüş yolu elə bircə gün çəkdi, lakin bu bir gündəki bir neçə saat ərzində düşmənə aramsız və sarsıdıcı zərbələr endirdi. Hiyləgər düşmən üstünə yağdırılan ölüm yağışını qarşısını almaq üçün onun tankından açılan sərrast atış nöqtələrini susdurdu. 2-ci Qarabağ savaşında şəhid olan ilk tankçımız idi Şahin. Onun mübarək şəhid nəşini elə sentyabrın 27-də gətirib Beyləqandakı Cərcis peyğəmbər qəbiristanlığındakı Şəhidlər Xiyabanında dəfn etdilər.

Şahinin qardaşı Babək deyir ki, orta məktəbdə oxuyandan idmanın karate və qaydasız döyüş növlərində yarışlarda iştirak edərdi. İdman Nazirliyi və Federasiyanın prezidenti tərəfindən I Dan Qara kəmər ustası adı aldı, Fəxri Fərmanlara layiq görüldü. Həmçinin 7-8-ci siniflərdə oxuyanda o vaxtlar təzə açılmış ”Zirvə” kursunda da oxuyan Şahin rəsm də çəkir, oxuduğu ”Zirvə” kursuna da ehtiram əlaməti kimi ara-sıra yazdığı şeirləri də Şahin Zirvə adı ilə qələmə alırdı. Şahin hərbi həyatını əks etdirən yazılardan ibarət döyüşçü gündəliyi də yazırdı. Şahin tankda tuşlayıcı atış operatoru olduğundan, mənfur düşmən tankda məhz onun yerləşdiyi hissəni hədəfə almış, həmin vaxt Şahinin döyüşçü çantasında olan gündəliyi və şeirləri də yandırılıb məhv olmuşdu.

”Qardaşım Zirvə təxəllüsü ilə şeirlər yazırdı. Arzusu-istəyi də zirvəyə ucalmaq idi. O, qəhrəmanlıq göstərib, şəhidlik zirvəsinə ucaldı”, - dedi Babək.

Ailənin üçüncü övladı və kiçik qardaş kimi dünyaya gələn Şahin Vaqif oğlu Hüseynli nağıllardakı kimi qəhrəmanlıq missiyasını yerinə yetirdi. Onun şücaəti dövlətimiz tərəfindən də ”Vətən uğrunda”, ”Füzulinin azad olunmasına görə”, III dərəcəli hərbi xidmətə görə, ”Cəsur döyüşçü” medalları ilə qiymətləndirilib. Bundan başqa, Şahin Hüseynlinin Beyləqan şəhərində yaşadığı küçəyə də onun adı verilib.

Bəli, qəhrəmanlıq bir zirvədir. O zirvənin pik nöqtəsi isə vətən, xalq yolunda misilsiz şücaət göstərib, Tanrı dərgahında müqəddəs məkan olan şəhidlik adlı zirvəni fəth etməkdir. Şahin bir döyüşçü olaraq düşmən üzərinə şahin kimi şığıdı, vətənimizin azadlığı yolunda tankçı döyüşçü kimi fədakarlıq göstərib, şəhidlik zirvəsinə ucaldı.





Şahin qardaşı Babək və anası ilə




**Şakir ALBALIYEV**

# Şəhid Vaqif İsmayılzadə- Vətənə fədakarlıq nümunəsi











1993-cü ildə doğma Cəbrayılımızdan, Horovlu kəndindən məcburi köçkün düşən Vüqar İsmayılovgil Beyləqan rayonunun Birinci Şahsevən kəndində gəlib məskunlaşdılar. Tale elə gətirdi ki, Vüqar 1995-ci ildə İkinci Şahsevən kəndindən olan Simnarə Qədir qızı ilə ailə həyatı qurdu. 1996-cı ilin 6 noyabrında ilk övladları dünyaya gəldi. Adını Vaqif qoydular, taleyini Allaha ismarladılar. 2000-ci ildə isə ikinci övladları olan qızları Əminə dünyaya gəldi. Beləcə, ilahidən oğul payı da, qız payı da bəxş olunmuş ailə bəxtəvər bir ailə ömrü yaşayırdı. Bircə ürəklərindəki qubar vətən həsrəti idi, doğma Horovluya, Cəbrayıla qayıdıb getmək nisgili idi. Ondan da ümidlərini kəsməmişdilər deyin sabaha nikbin duyğularla baxırdılar. Bilirdilər ki, hər qaranlıq gecənin bir açılan gündüzü olduğu kimi, bu məcburi köçkünlük nisgilinin sona yetəcəyi gün də var.

Ailənin ilk övladı olan Vaqif 2003-cü ildə 1-ci Şahsevən kənd orta məktəbin 1-ci sinifinə getdi. Yaxşı oxumaqla bahəm idman fənninə də böyük maraq göstərir, yüngül atletikada, turnik hərəkətlərində, futbol oyunlarında fəallıq göstərir, müxtəlif tipli idman yarışlarında iştirak edir, yüksək nəticələr göstərirdi. Bilirdi ki, hər bir gəncin fiziki sağlamlığı həm də yaxşı idmançı olmaqdan asılıdır. Fiziki sağlamlıq isə insanda fiziki gücün olmasını təmin edir. Vətənə isə sağlam mənəviyyata və sağlam orqanizmə malik olan gənclər lazımdır. Düşməni mənəvi intellektlə yanaşı güc zoruna da məğlub edib, çökdürməyin vacib olduğunu da yaxşı anlayırdı Vaqif.

2014-cü ildə orta təhsilini bitirən Vaqif az sonra, 2015-ci ilin 8 yanvarında əsgəri xidmətə yola düşdü. Bakı ətrafında, Yaşma deyilən yerdə il yarım qulluq edib, 2016-cı ilin iyulunda ordudan tərxis olundu.

Vaqif Vüqar oğlu İsmayılzadə 2017-ci ilin sentyabrın 9-da İmişli rayonunun Sərxanlı kəndindən olan Samirə Həsi qızı ilə ailə həyatı qurur. Artıq hərbi xidməti başa vurmuş, ata-ana xeyir-duası ilə evlənmişdi. Ancaq qəlbində onu narahat edən bir məsələ vardı. O, məcburi köçkün idi. Birinci Şahsevən kəndində nə qədər xoş gün-güzəran görsə də, ata yurdu düşmən əlində idi. Bu acı reallıqla heç cürə barışa bilmirdi. Buna görə də 2017-ci ilin 28 noyabrından Beyləqan rayonunun hərbi polisində fəaliyyətə başladı.

2018-ci ilin 31 oktyabrında Vaqifin bir oğlu dünyaya gəldi. Atasının adını qoydu ona: Vüqar adını. 2019-cu ilin 28 dekabrında isə ikinci oğul övladı Renat dünyaya göz açdı.

Vaqifin atası Vüqar kişi deyir ki, 27 sentyabrda Vətən müharibəsi başlananda oğlu komandirə ərizə ilə müraciət edib, döyüş bölgəsinə göndərilməsini xahiş edib. "Ural" markalı hərbi maşının sürücüsü kimi ağır döyüş əməliyyatının getdiyi mövqelərə gedir, şəhid olanları və yaralıları daşıyırdı. Bu minvalla o, Füzuli, Cəbrayıl, Hadrut, Xocavənd rayonlarında gedən döyüşlərdə fədakarlıqlar göstərir. Axırıncı dəfə oktyabrın 21-də Xocavənd rayonunun Axullu kəndi ərazisində "Ural"la hərəkət edərkən, mənfur düşmənlər onun idarə etdiyi maşını minamyotla vururlar. Oktyabrın 25-də onun nəşini tapıb, döyüş bölgəsindən götürürlər. Oktyabrın 26-da isə 3 nömrəli sovxozda - Qəhrəmanlı kənd qəbiristanlığında şəhidlər üçün ayrılmış yerdə onu dəfn edirlər. Qeyd edim ki, burada əslən Cəbrayıldan olan şəhidlərimizdən Hüseyn Hüseynov və Məhəmməd Alikoğlu - əmi-bala iki şəhidimiz, Elyar Mirzəyev, Ruslan Hüseynov da uyuyurlar. Bəlkə də, buranı "Cəbrayıllı şəhidlərin uyuduğu cənnət bağı" adlandırmaq da olar. Çünki vətən uğrunda şəhadətə qovuşanların məkanı cənnətdir.












Vaqifin anası Simnarə xanım da, əmisi İmran Əhməd oğlu da söhbətə qoşuldular, Vaqifin ailəcanlı, elcanlı, vətənpərvər keyfiyyətlərindən danışdılar. Vaqifin azyaşlı övladları Vüqarla Renat isə dünyanın gəldi-gedərindən hələ xəbərsizdilər. Onlara işarə edən Vaqifin anası bildirdi ki, bir oğlum vardı, Vətən yolunda verdim. İndi onun bu körpələri qalıb. İstərdim Vaqifin haqqında vaxtaşırı yazılar verilsin, verilişlər hazırlansın ki, bu balaları böyüyəndə atalarının kim olduğunu bilib fəxr etsinlər.

Mən isə şəhid anasına üz tutub deyirəm ki, onlar onsuz da bizim qürur yerimizdir. Onlar Vətənimizin azadlığı uğrunda canlarını qurban verərək özlərini şəhidlik zirvəsinə ucaldıb, əbədiyaşarlıq haqqı qazandılar. Şəhidlərimiz xalqımız tərəfindən daim sonsuz hörmət hissi ilə anılır, dövlətimiz isə onların xidmətini layiqincə qiymətləndirir. Dövlətimiz tərəfindən "Vətən uğrunda" medalı ilə təltif olunmuş İsmayılzadə Vaqif Vüqar oğlunun da xatirəsi yaddaşlarda və ürəklərdə əbədi yaşayacaqdır, adı bu günkü və gələcək nəsillərin fəxarət ünvanı kimi anılacaqdır. Vaqifin övladları da böyüyüb yaşa dolduqca, həyatı dərk etdikcə atalarının vətən yolunda fədakarlıq göstərib şəhidliyə qovuşduğunu anlayacaq və onunla qürur hissi keçirəcəklər. "Vətənimiz uğrunda fədakarcasına özünü qurban vermiş atamızla fəxr edirik" deyəcəklər.


















# Xatirəsi əbədi yaşayacaqdır



Cəbrayıl rayonunun təhsil ictimaiyyətinə ağır itki üz verib. 31 mart 2021-ci ildə Hovuslu kənd tam orta məktəbinin direktoru, Əməkdar müəllim Məhəmmədəli Eyvaz oğlu Səfərov uzun sürən xəstəlikdən sonra 61 yaşında dünyasını dəyişib.

Məhəmmədəli Səfərov 1960- cı ilin mart ayının 31-də Cəbrayıl rayonunun Hovuslu kəndində anadan olub. Orta təhsilini doğma kəndinin məktəbində alıb.Azərbaycan Dövlət Pedaqoji Universitetinin riyaziyyat fakultəsinə daxil olub. Universiteti bitirdikdən sonra doğma kəndində ixtisası üzrə müəllim işləyib, uzun illər gənc nəslə riyaziyyat elminin sirlərini öyrədib.

Doğma Qarabağımızın üstündən əsən qara yellər onun da həyatına təsirsiz ötüşməyib. 1993-cü ilin avqust ayında Cəbrayıl rayonu işğal olunduqdan sonra ailəsi ilə birlikdə Bakı şəhərində məskunlaşıb. Məcburi köçkün məktəbi kimi Bakı şəhərində fəliiyyət göstərən Hovuslu kənd tam orta məktəbində pedaqoji fəaliyyətini davam etdirib. 2002- ci ilin sentyabrından ömrünün sonuna qədər həmin məktəbə rəhbərlik edib. Həm sıravi müəllim, həm də direktor işlədiyi dövrdə respublikamızın gələcəyi üçün layiqli vətəndaşlar yetirməkdən ötəri yorulmadan çalışıb. Peşəkar kollektiv formalaşdıran Məhəmmədəli Səfərovun təhsildə fəaliyyəti ölkə rəhbərliyi tərəfindən yüksək qiymətləndirilərək 2007-ci ilə ona Əməkdar müəllim adı verilib.

Bundan başqa, gözəl insani keyfiyyətlərə malik olan Məhəmmədəli Səfərov uzun illər ibadətlə məşğul olub və 2016-cı ildə müqəddəs Məkkə şəhərini ziyarət edib.

Məhəmmədəli Səfərov həm də gözəl ailə başçısı olub. İki övlad böyüdüb boya -başa çatdıran gözəl ata təkcə övladlarını yox, bütün şagirdlərini doğma övladı hesab edərdi...

Məhəmmədəli Səfərov el-oba arasında, təhsil ictimaiyyəti arasında böyük nüfuz qazanmışdı.

**Layiqli dost, əsl müəllim , qayğıkeş ata, ən əsası gözəl insan olan Məhəmmədəli Səfərovun əziz xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayacaqdır!**

**Allah rəhmət eləsin!**

**Cəbrayıl rayon Təhsil Şöbəsi**

# Xatirəsi yaşayacaqdır



Cəbrayıl rayonunun mədəniyyət işçilərinə ağır itki üz verib. Biləsuvar Regional Mədəniyyət İdarəsinin baş məsləhətçisi, Cəbrayıl rayonu üzrə nümayəndəsi Kamran İmran oğlu Quliyev 16 aprel 2021-ci ildə 64 yaşında vəfat etmişdir.

Kamran Quliyev 1957-ci il avqustun 13-də Cəbrayıl rayonunun Mahmudlu kəndində anadan olub. 1972-ci ildə Qumlaq kənd 8 illik məktəbini, 1974-cü ildə Soltanlı kənd orta məktəbini bitirmişdir. 1975-1983-cü illərdə S.M.Kirov adına Qırmızı Əmək Bayrağı ordenli Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Kitabxanaşünaslıq və biblioqrafiya fakültəsinin qiyabi şöbəsində təhsil almışdır.

Əmək fəaliyyətinə 1974-cü ildə başlayıb. 1976-1978-ci illərdə hərbi xidmətdə olub. 1979-cu ildə Cəbrayıl rayon Mədəniyyət şöbəsinin nəzdindəki 5 nömrəli avtoklubun, 1979 -1983-cü illərdə Uşaq kitabxanasının müdiri, 1983-1989-cu illərdə Cəbrayıl rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru, 1989-1991-ci illərdə Azərbaycan Kommunist Partiyası Cəbrayıl rayon Komitəsinin Təbliğat və Təşviqat şöbəsində təlimatçı, 1991-1992-ci illərdə Cəbrayıl Rayon İcra Hakimiyyəti Başçısı Aparatında Ərazi Hakimiyyəti və İdarəetmə orqanları ilə iş şöbəsində böyük məsləhətçi, 1993-1996-cı illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Respublika Elmi Pedaqoji Kitabxanasında metodist vəzifəsində işləmişdir.

1991-1995-ci illərdə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun qiyabi şöbəsində təhsil alaraq ali politoloq ixtisasına yiyələnmişdir.

Məcburi köçkünlük dövründə 1996-2006-cı illərdə Rusiya Federasiyasında fərdi əmək fəaliyyəti ilə məşğul olan K.Quliyev 2006-2007-ci illərdə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin ”Maarif” nəşriyyatında redaksiya müdiri, 2007-2017-ci illərdə Cəbrayıl rayon Mədəniyyət şöbəsinin müdiri, hazırkı dövrədək isə Biləsuvar Regional Mədəniyyət İdarəsinin baş məsləhətçi, Cəbrayıl rayonu üzrə nümayəndəsi vəzifəsində çalışırdı.

Ailəli idi, üç övladı var.

Əsl insan, qayğıkeş ailə başçısı Kamran Quliyevin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır!

**Allah rəhmət eləsin!**

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və ”Xudafərin” qəzeti**

VİDA SÖZÜ

# GEDİŞİN NƏ AĞIRMIŞ...

*(Qarabağ müharibəsi qazisi Tahir Cavad oğlu Vəliyevin əziz xatirəsinə)*

Əcəl aldı, yer gizlədi, fani dünya kimə qaldı? Gəlimli, gedimli dünya, son ucu ölümlü dünya! Ta Dədəmiz Qorquddan üzü bəri bu sözlər dilimizin əzbərinə, üreyimizin haray-həşirinə, hayqırtısına dönüb. Vaxtsız gələn ölümlərə etirazımız, bəzən də ən ağır anlarda təsəllimiz olub bu sözlər. Dünyanın əzəli və əbədi bir hökmü var: bir gün gələn bir gün gedəcək dünyadan.Amma gedişimiz faciəli və çox erkən olanda yandırıbyaxır insanı...Qarabağ qazisi Tahir Cavad oğlu Vəliyevin alın yazısı, bəxt düzümü kimi...

İlaxır çərşənbə öncəsi gələn bir acı xəbər hər birimizi sarsıtdı, yasa boğdu. İllər öncə dünyasını dəyişmiş Cavad kişinin məzarı od tutub yandı, Fiqura ananın, bacısı Arzunun ah-naləsi ərşə bülənd oldu, ömürgün yoldaşı Sədayə xanımın göz yaşı selə döndü, qardaşları Teymur və Mahirin gözləri gedər gəlməz bir yola dikildi, oğulları Kamranın, Nurlanın, Sənanın atalı günləri acılı-şirinli xatirəyə çevrildi, hələ dil açmamış nəvəsinin ”baba” kəlməsi dodaqlarında dondu. Ata-babalarımız ”ölüm gözlə qaş arasındadır” desələr də, qəza ilə gələn ölüm çox gözlənilməz və dəhşətli olur. Tahir Vəliyev Biləsuvar -Bəhrəmtəpə avtomobil yolunda faciəli şəkildə dünyasını dəyişdi.



Neçə-neçə arzuları yarımçıq qaldı, yurd yerlərimizə dönüşün sevincini doyunca yaşaya bilmədi. Bu sevinci yaşamaq haqqı olanlardan biri idi o. Axı bu torpaqların düşmən tapdağı altına düşməməsi üçün Tahir də doxsanıncı illərin əvvəllərində silaha sarılaraq döyüşlərdə iştirak etmişdi. Vətən müharibəsi başlayandan bir yerdə qərar tuta bilmir, hər an cəbhəyə yola düşməyə can atırdı. Ordumuzun uğurlu əməliyyatlarından ağız dolusu söz açır, müzəffər Ordumuzla qürur duyduğunu deyirdi.

Tahir olduqca həssas, qayğıkeş, səmimi, ən başlıcası əməksevər insan idi. O, Soltan Hacıbəyov adına Sumqayıt Musiqi Kollecini bitirmiş, məcburi köçkünlük illərində müvəqqəti məskunlaşdığı Saatlı şəhərində uzun illər müəllimlik fəaliyyəti ilə məşğul olmuşdu. Son illərdə rayonumuzun İ. Tahirov adına Mehdili kənd tam orta məktəbində təsərrüfat işləri üzrə direktor müavini işləyirdi. Məktəbin maddi-texniki bazasının möhkəmləndirilməsində, təmizlik-abadlıq, yaşıllaşdırma işlərinin görülməsində və məktəbin ictimai işlərində yaxından iştirak etmiş, kollektivin hörmətini qazana bilmişdi. Tahir Vəliyevi qayğıkeş ata, gözəl ailə başçısı kimi tanıyırdıq. Üç oğul böyütmüş, baba olmaq sevincini dadmışdı.

Arzular heç vaxt bitib tükənmir. İkinci oğlunun da xeyir işini görmək, oğul toyunda iştirak etmək arzusunda idi. Çox təəssüf ki, hər şey arzuladığımız kimi olmur. Qırx səkkiz yaşın astanasında yarımçıq qalan bir ömürə çox heyf...Yaddaşımda qalan, müəllifini unutduğum misralardı imdadıma çatan:

Ayrılanda qəhər boğdu,
Deyə bilmədin sözünü...
Fələkdən kömək istədin,
Fələk də yumdu gözünü...

Bax belecə, fələyin hər şeyə göz yumduğu bir ana tuş gəldin, əziz eloğlum! Axı yurd yerində bir ocaq daşı, abadlaşmaq arzusunda olan dədə-baba evi yolunu gözləyirdi. Yaşayıb, uzun ömür sürüb, o torpaqda dəfn olunmaq hər birimizin arzusudu axı...Məzarın Biləsuvar torpağında olsa da, ruhun doğma Cəbrayıldadır. Ruhun şad, məkanın cənnət olsun, qardaş!

**HİDAYƏT SƏFƏRLİ**

# DƏNLİ VƏ TEXNİKİ BİTKİLƏRİN YANĞIN TƏHLÜKƏSİZLİYİ

Kənd təsərrüfatı məhsullarının, o cümlədən taxılın, digər dənli və texniki bitkilərin yanğından qorunması tək yanğın təhlükəsizliyi qurumları əməkdaşlarının deyil, eləcə də təsərrüfat başçılarının, traktorçuların, kombaynçıların, mexanizatorların, mexaniklərin, sürücülərin, məhsul yığımında iştirak edən bütün əməkçilərin ümdə vəzifəsi olmalıdır.

Taxıl və ot yığımı ərəfəsində bütün kənd təsərrüfatı texnikaları yanğına qarşı hazırlanmalı, ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməlidir.

Dənli və texniki bitkilərin yığımında iştirak edən bütün texnikaların yanğın təhlükəsizliyi qaydalarının tələblərinə uyğun olması hər bir təsərrüfatda təşkil olunmuş xüsusi komissiya tərəfindən Dövlət Yanğın Nəzarəti Xidmətinin yerli qurumlarının əməkdaşlarının iştirakı ilə birgə yoxlanılmalıdır.

Mühərriki akkumlyatorla işə salınan kombayn və traktorların elektrik naqillərinin etibarlı izolyasiyası olmalı, naqillər sürtünmədən və mexaniki zədələrdən qorunmalıdır.

Biçində iştirak edən texnikaların naqilləri gövdə və onun iti künclərindən keçən yerlərdə rezin və yaxud plasmas borularla mühafizə olunmalıdır.

Dənli və texniki bitkilərin yığımında iştirak edən bütün texnikaların atqı boruları qığılcımsöndürənlərlə təmin edilməli, hava verən turbinli mühərriklər istismara yararlı olmalıdır.

Taxıl yığımı, ot tədarükü zamanı müvəqqəti tarla düşərgələri taxıl zəmilərindən, xırmanlardan və s. yanğın təhlükəli yerlərdən ən azı 100 metr kənarda olmalıdır.

Taxıl zəmilərində, xırmanlarda, ot tayaları yığılan yerlərdə siqaret çəkilməməlidir!

Taxıl yığımı və ot tədarükü zamanı kombaynın kənar şəxslər tərəfindən işə salınmasına, onun yedəyə alınmaqla və yüksəklikdən buraxılmaqla işə salınmasına, yanacaq və yağların sızmasına yol verilməsinə, işdən sonra texnikanın sahələrdə saxlanmasına, kombaynlarda əlavə yanacaq və yağlama materiallarının saxlanılmasına yol verilməməlidir.

Taxıl zəmilərində kibrit yandırmaq, açıq oddan istifadə etmək olmaz.

Taxıl zəmiləri kombaynın gündəlik yığım normasına uyğun olaraq sahələrə bölünməli, bu sahələrin arası 8 metr enində biçilməli və həmin zolaq mütləq ən azı 4 metr enində şumlanmalıdır. Biçilmiş ot və taxıl həmin sahədən kənar edilməlidir. Taxıl yetişən zaman yanğın təhlükəsizliyinə məsul şəxslər tərəfindən zəmiləri yanğından qorumaq məqsədilə xüsusi keşikçilər ayrılmalıdır.

Tarla düşərgələrində, taxıltəmizləmə xırmanlarında, ot və küləş yığılan yerlərdə siqaret çəkmək üçün xüsusi yer ayrılmalıdır.

Biçilmiş ot zəmilərdən ən azı 30 metr məsafədə tayalara vurulmalı, ot tayaları bir-birindən ən azı 20 metr yanğına qarşı ara məsafəsi olmaqla qurulmalıdır.

Taxıl zəmisinin yaxınlığında tonqal qalamaq, gecə vaxtı maşınların yanacaqla doldurulması qadağan edilməlidir.

Tarla düşərgələri, taxıl təmizləmə xırmanları, ot və küləş tayaları yığılan sahələr ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməlidir.

Zəmilərin yaxınlığında uşaqların kibritlə oynamasına, odla dəcəllik etməsinə yol verilməməli, tezalışan məhsullar, o cümlədən yanacaq və sürtgü materialları yerə tökülməməlidir.

Taxıl yığımı zamanı kombayn, traktor və otbiçən, eləcə də taxılı daşıyan avtomaşınlarda yanğın baş verərsə, yanğını təcili olaraq söndürmək və texnikanı taxıl zəmisindən çıxarmaq lazımdır. Yanğın zamanı kombaynın küləş yığılan hissəsindən küləşin boşaldılması kombayn taxıl zəmisindən çıxarıldıqdan sonra həyata keçirilməlidir.

**Qarabağ regional Dövlət Yanğın Nəzarəti İdarəsi**

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və “Xudafərin” qəzeti**

Məmmədov Bakir Şəmil oğlu, Mirimov Sədrəddin Eyvazalı oğlu, Hüseynov Əbil Qurban oğlu, Hüseynov Hüseyn Əlfəz oğlu, Muradov Əkbər Əhməd oğlu, Məmmədova Nigar Dadaş qızı, İbrahimova Minarə İsax qızı, Mirzəyeva Qızqayıt Hətəm qızı və Alışov Məhəmmədəli Qurban oğlunun vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

Baş redaktor:
Şakir Əlif oğlu
ALBALIYEV

Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.
CİF 1209641
H/h:55233080000
kod: 200123
VÖEN: 9900003611
SWIFT kod: AIIBAZ2X
M/h: AZ37NABZ01350100000000001944
Benefisiarın hesabı: AZ27IIB410100C9443130139112
VÖEN: 8200035441
Ünvan: AZ 1073, Bakı şəh.,
Mətbuat prospekti, 529-cu məhəllə
“Azərbaycan” nəşriyyatı.
Telefon: (051) 441-15-82

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.

Əlyazmalar geri qaytarılmır.

Qəzet “Xudafərin” qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında çap edilib.
albaliyevshakir@gmail.com
albaliyevshakir@rambler.ru
Sifariş №: 1100
Tiraj: 1500